Günəş Şərqdən doğur!

№ 61 (5342), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 9 aprel 2021-ci il (cümə)



## Azərbaycan və Türkiyə ordularının birgə təlimləri başlayıb

(Səh.5)

### Günün içindən...



## Qarabağ ətrafında vəziyyət müzakirə olunub

Vladimir Putin Prezident İlham Əliyevə telefonla zəng edib

**Dünən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında vəziyyət, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq vəziyyətin daha da sabitləşdirilməsinin müzakirəsi davam etdirilib.

(səh.3)

## “Hərbi əsirlər mövzusu bağlanıb"



Nazir: “Ermənistan tərəfi spekulyasiyalarla özünün üçtərəfi bəyanata zidd addımlarını gizlətmək istəyir”

(səh.2)

# Paşinyan Moskvadan əliboş qayıtdı



## Putin imkan yaratmadı, baş nazirin sualları dəftərçədə qaldı

**Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşüb.** Qarabağ münaqişəsi ətrafında vəziyyətin müzakirəsindən tutmuş ikitərəfli əlaqələrə qədər çox böyük sahələri əhatə edən məsələlər müzakirə mövzusu olub.

(səh.6)

## Ölkənin bütün sürücüləri narazıdır

“Azərbaycanda qanuni parklama sistemi yoxdur. Amma qanunsuz parklanma ilə bağlı cərimə sistemi qurulub və aktivdir”

(səh.9)



## Laçın şəhərinə giriş imkanları genişlənəcək

Xudafərin-Qubadlı-Laçın yolunun çox böyük əhəmiyyəti olacaq

(səh.5)

## Ermənilər çox vəhşi millətdir

Qarabağa səfər edən əcnəbi ölkəsinə bu informasiyanı aparacaq

(səh.6)

## 31 nəfər vəfat edib

Son sutkada 2717 nəfər koronavirusa yoluxub

(səh.8)

## Gəncədə kişi özünü binanın 5-ci mərtəbəsindən atıb

(səh.9)

## Tək dövlət bacarmaz, ictimai qınaq vacibdir



Hamı bir hədəfə vurmasa, fəlakətdən qurtarmaq çətin olacaq

(səh.8)

## “28 illik həsrətimə son qoyuldu”

Afət Telmanqızı: “Atamın məzarını çox axtardım, tapa bilmirdim”



(səh.9)

# “Ermənistan bizə minaların xəritəsini verməyib”

## “Bu, daha bir müharibə cinayətidir. Çünki, bunu etmək onların borcudur”



## Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edib.

Baş katibi salamlayan Prezident İlham Əliyev dedi:

- Gəldiyinizə görə təşəkkür edirəm. Siz bizi müntəzəm olaraq ziyarət edirsiniz. Bu, bizim əməkdaşlığımızın və sizin ölkəmizə münasibətinizin çox yaxşı nümayişidir. Əvvəla söhbətimizə başlamazdan əvvəl mən İslam Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında əməkdaşlığın inkişafına verdiyiniz müstəsna töhfəyə görə sizi Azərbaycanın dövlət ordeni - ”Dostluq” ordeni ilə mükafatlandırmaq istəyirəm.

*Azərbaycan Prezidenti İlham Əliyev ”Dostluq” ordenini Yusif bin Əhməd əl-Osayminə təqdim etdi.*

**Prezident İlham Əliyev:** Həmçinin fürsətdən istifadə edərək Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstəyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm.

Bildiyiniz kimi, münaqişə bizim tərəfimizdən birtərəfli qaydada həll olunub. 44 günlük müharibə Azərbaycan torpaqlarının 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğala son qoydu. İndi əcnəbi jurnalistlər və diplomatlar işğaldan azad olunmuş ərazilərə səfər edəndə onlar görürlər ki, ermənilər hər şeyi dağıdıblar. Bütün şəhərlər, bütün kəndlər, tarixi və dini məkanlar, məscidlər, qəbiristanlıqlar dağıdılıb. Bu, islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və İslam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi. Mən bilirəm ki, səfirlər, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə kontakt qrupun üzvləri bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə səfər ediblər və bunu öz gözləri ilə görüblər. Onlar açıq bəyanatlar veriblər və biz buna görə çox minnətdarıq. İndi biz bütün dünyanın bunu görməyini, başa düşməyini istəyirik ki, bizim atdığımız addımlar haqq işi idi, beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, özünümüdafiə hüququmuza və ədalətə əsaslanırdı. Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki, əlbəttə ki, ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub. Ermənistan bizə minaların xəritəsini verməyib. Bu, daha bir müharibə cinayətidir. Çünki, bunu etmək onların borcudur. Lakin müharibənin artıq aylardır bitməsinə baxmayaraq, onlar azərbaycanlılara qarşı bu siyasəti davam etdirirlər. Lakin biz lazım olan hər şeyi edəcəyik. Minatəmizləmə prosesi gedir. Biz artıq yenidənqurma işlərini planlaşdırırıq. Şəhərlərin, kəndlərin baş planları artıq hazırlanma prosesindədir və əlbəttə ki, biz İslam dünyasından olan qardaşlarımızın gəlib onların bizim tarixi irsimizə nə etdiklərini və yenidənqurma prosesini görməsini istəyirik. Sözsüz ki, mən sizi gələcəkdə, biz yenidənqurma prosesinə başlayandan sonra da görməyə şad olardım.

**Baş katib Yusif bin Əhməd əl-Osaymin:** Cənab Prezident, əvvəlcə məni və Təmas Qrupuna daxil olan ölkələrdən nümayəndə heyətini dəvət etdiyinizə, hadisələrin necə cərəyan etdiyini görmək imkanının yaradılması üçün Sizə təşəkkür etmək istəyirəm. Mən Sizinlə olan şəxsi münasibətimizə böyük dəyər verirəm, bu, hər zaman belə olub və belə də davam edəcək.

Cənab Prezident, Sizi təbrik etmək istəyirəm, çünki hər dəfə Bakıya səfərə gələndə, hər tərəfdə yenilik və inkişafın şahidi oluram, şəhər sonuncu dəfə gördüyümdən daha fərqli olur. Əminəm ki, bütün bu inkişafın, tərəqqinin və gərgin işin arxasında Siz dayanmısınız və bu, hər bir azərbaycanlının istəyidir.

Cənab Prezident, bu böyük Qələbə münasibətilə Sizi təbrik edirəm. Bu yalnız Sizin deyil, bizim də qələbəmizdir və biz çox xoşbəxtik. Mən Sizin liderliyinizi və səbir nümayiş etdirməyinizi təqdir edirəm. Siz 30 il ərzində torpaqların işğalı məsələsində təmkinlə davrandınız, bunun başqa bir ölkədə ola biləcəyinə inanmıram. Sizin məsələniz haqq işi idi - torpaqlar sizin idi, beynəlxalq hüquq tərəfinizdə idi, İslam Əməkdaşlıq Təşkilatı yanınızda idi və onun qətnamələri sizi dəstəkləyirdi. Burada söhbət ölkənizin ərazisinin 20 faizindən, Azərbaycanın böyük bir hissəsindən gedir. Allaha şükürlər olsun ki, Sizin müdrikliyiniz və təmkinliyiniz öz bəhrəsini verdi və məsələ müsbət həll olundu.

# “Hərbi əsirlər mövzusu bağlanıb”

## Nazir: “Ermənistan tərəfi spekulyasiyalarla özünün üçtərəfi bəyanata zidd addımlarını gizlətmək istəyir”



"Hərbi əsirlər mövzusu artıq həllini tapıb və bu mövzu bağlanıb".

Bunu Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov İƏT Baş katibi Yusif Bin Əhməd Əl-Osaymin ilə keçirilən birgə mətbuat konfransında deyib.

**Nazir bildirib ki, Azərbaycan beynəlxalq münasibətlərdə öz məsuliyyətini dərk edir:**

”10 noyabr bəyanatından sonra da Azərbaycan öz məsuliyyətli mövqeyini sərgilədi. Azərbaycan tərəfi 10 noyabrdan sonra Ermənistana 70-dən artıq hərbi əsir verdi, Ermənistan isə Azərbaycan tərəfinə 12-yə qədər hərbi əsir qaytarıb.

Hazırda Ermənistan tərəfindən qaldırılan məsələ 10 noyabrdan təqribən bir ay sonra yaranan bir məsələdir. 10 noyabr razılaşmasına əsasən, Azərbaycanın nəzarətində olan ərazilərdə Ermənistan hərbçilərin yerləşdirilməsi, təxribatlar törədilməsi nəticəsində 4 Azərbaycan hərbçisi həlak olub, bir mülki şəxs yaralanıb”.

*Nazir qeyd edib ki, Azərbaycan tərəfindən aparılan əməliyyat nəticəsində ermənilərin həmin qrupu zərərsizləşdirilib və 62 nəfər tutulub:*

”Aparılan istinaq nəticəsində həmin şəxslərin 26 noyabr tarixində Azərbaycan ərazilərində yerləşdirilməsi öz təsdiqini tapıb. Onlar demək olar ki, hamısı Ermənistandan olan insanlardır. Azərbaycan qanunlarına əsasən, həmin insanlar cinayət əməli törədiblər.

Şəxsin hərbi əsir adlandırılması üçün hərbi əməliyyatlar olmalıdır, lakin bu olmadıqda onları terrorçu adlandırmaq olar. Azərbaycan bu barədə beynəlxalq təşkilatları məlumatlandırıb. Biz bununla bağlı beynəlxalq təşkilatlara müraciət etmişdik, bu əməllərin regionda təhlükəsizliyə ciddi təhdid olduğunu və bununla bağlı Ermənistana ciddi təzyiqn göstərilməsinin vacibliyini vurğulamışdıq.

Ermənistan tərəfi indi bu kimi spekulyasiyalarla özünün üçtərəfi bəyanata zidd addımlarını gizlətmək istəyir”.

*Nazir vurğulayıb ki, üçtərəfli bəyanata əsasən, Ermənistan hərbçiləri qeyd-şərtsiz Azərbaycan ərazilərini tərk etməlidir, lakin biz hələ də görürük ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərində hərbçilər yerləşdirməyə cəhd edilir:*

”Hətta erməni valideynlər də buna etiraz edir, övladlarının Azərbaycan ərazisinə göndərilməsinə etiraz edirlər, valideynlər həmçinin övladlarının gecə vaxtı, mülki nəqliyyat vasitələri ilə tikinti işləri adı altında Azərbaycan ərazilərinə yerləşdirilməsi cəhdlərindən danışırlar. Azərbaycan tərəfi bununla bağlı məlumatları aidiyyəti beynəlxalq qurumlara təqdim edib”.



## Rusiyanın Baş Prokuroru Azərbaycana rəsmi səfərə gəlib

**Azərbaycan Respublikasının Baş Prokurorluğu cinayətkarlıqla mübarizə sahəsində bir sıra beynəlxalq və regional təşkilatlarla, o cümlədən xarici ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları ilə işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması zəminində səmərəli fəaliyyətini davam etdirir.**

Baş Prokurorluğun mətbuat xidmətindən “Şərq”ə verilən xəbərə görə, Rusiya Federasiyasının Baş Prokuroru İqor Krasnov 8 aprel 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəlib.

Hər iki qurum rəhbərləri ikitərəfli qarşılıqlı fəaliyyətin müxtəlif aspektlərini, prokurorluq fəaliyyətinin ən aktual məsələləri üzrə birgə tədbirlərin keçirilməsinin perspektivlərini müzakirə etmək və bir sıra ikitərəfli sənədləri imzalamaq niyyətindədirlər.

Səfərin təfərrüatları barədə ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək.

# Qarabağda insanlığa qarşı cinayət törədilib



## Xarici qonaqları ən çox narahat edən bütün ərazilərdə ibadət yerlərinin dağıdılması olub

"İslam Əməkdaşlıq Təşkilatının üzvləri bərpa prosesində Azərbaycana dəstək verəcək". Bunu İƏT nümayəndə heyətinin keçirdiyi mətbuat konfransında baş katibin köməkçisi Əhməd Kavrsa Sengendo deyib. O bildirib ki, münaqişə başa çatsa da, davamlı sülhün yaradılması və bərpa prosesi kifayət qədər vaxt aparan məsələdir. Münaqişədən zərər çəkən böyük sayda insanlar var:

"Biz istəyirik ki, onların həyatları bundan sonra öz axarına qayıtsın. Bərpa prosesləri öz-özlüyündə kifayət qədər çətin prosesdir. İƏT-in üzvləri bərpa prosesində Azərbaycan xalqına və dövlətinə öz dəstəyini davam etdirəcək. Biz üzvləri bu məsələdə öz dəstəyini nümayiş etdirməyə çağırırıq".

**"Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyik"**

**Təşkilatın daimi nümayəndəsinin müavini Jah Abu Bakir Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəklərini deyib:** "Biz işğaldan azad edilən bölgəyə səfərimiz çərçivəsində oranın təbiətinin necə gözəl olduğuna şahidlik etdik. Amma bununla yanaşı, hər yerin dağıdıldığının şahidi olduq. Biz öz tərəfimizdən tarixi ərazilərin bərpasını gözləyəcəyik. Ümid edirik ki, bir neçə il sonra burada firavan yaşayışın şahidi olacağıq. Buradakı vandallıq digər münaqişə bölgələrindəki təcavüzkar və işğalçılara nümunə olmalıdır ki, sadəcə, vəhşilik törədib canını qurtara bilməsinlər. Ölkəmin Azərbaycandan uzaq olmasına baxmayaraq, Azərbaycan daim bizim qəlbimizdədir. Biz Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyik".

**"Baş çəkdiyimiz bütün ərazilərdə ibadət yerlərinin dağıdıldığını gördük"**

**Malayziyanın Azərbaycandakı səfiri Dato Yubazian Bin Yusof bildirib ki, baş çəkdikləri bütün ərazilərdə ibadət yerlərinin dağıdıldığını görüblər:** "Səfərimiz çərçivəsində işğaldan azad edilən ərazilərə baş çəkdik. Gördüyümüz səhnələr haqqında kifayət qədər məlumat verildi. Biz yalnız işğaldan azad olunan ərazilərə deyil, münaqişə zonasından kənarda yerləşən mülki əhalinin yaşadığı ərazilərin də münaqişənin təsirlərinə məruz qaldığının şahidi olduq. Bunlar hamısı insanlığa qarşı cinayətlərdir. Bizi narahat edən məsələlərdən biri də baş çəkdiyimiz bütün ərazilərdə ibadət yerlərinin dağıdılmasıdır. Biz Azərbaycanla həmrəylik nümayiş etdirmişik və noyabrın 10-da imzalanan bəyanatı dəstəkləyirik. Bərpa prosesində də öz dəstəyimizi nümayiş etdirəcəyik. Həmçinin Azərbaycan xalqına bu prosesdə mənəvi dəstək də lazımdır".

**"Qarabağda işğala son qoyulması islam torpağının azad olunması deməkdir"**

**Türkiyənin təşkilatdakı təmsilçisi Mehmet Metin Eker vurğulayıb ki, Qarabağda işğala son qoyulması islam torpağının azad olunması deməkdir:** "İslam dünyası bundan sonra da Azərbaycanın yanında olacaq. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi böyük zəfərdir. Bundan sonra bu torpaqlarda təhlükəsizliyin təmin edilməsi və insanların torpaqlarına qayıtması Azərbaycanın qarşısında duran mühüm vəzifədir. İƏT bu istiqamətdə Azərbaycanın yanındadır".

**"Azərbaycanın qələbəsi bizim üçün çox əhəmiyyətlidir"**

**Pakistanın İslam Əməkdaşlıq Təşkilatındakı daimi nümayəndəliyinin rəhbəri, səfir Rizvan Səid Şeyx deyib ki, İƏT Qarabağdakı erməni vandallığı ilə bağlı hesabat hazırlayacaq.** Onun sözlərinə görə, hesabat üzv dövlətlərə təqdim ediləcək: "Hesabat İƏT Xarici İşlər Nazirləri Şurasının qətnamələr hazırlaması üçün əsas olacaq. Pakistan İƏT Xarici işlər nazirləri Şurasının növbəti Zirvə toplantısına ev sahibliyi edəcək. Biz sülhün daimi olması üçün təşkilatın həyata keçirə biləcəyi tədbirləri müzakirə edəcəyik. Pakistanda bir araya gələcək XİN başçıları səylərin səfərbər olunması üçün konkret tədbirlər planını işləməlidir. Bu tədbirlər planında sülhün dayanıqlı olunmasına yönəldilməlidir. Münaqişələrin digər bölgələrdə başa çatmasına və sülhün yaranmasına nail olunmalıdır".

**"Ağdamın yer üzündən silindiyinin şahidi olduq"**

**Cibutinin Səudiyyə Ərəbistanındakı səfiri Dya-Eddine Said Bamakhrama Ağdamın yer üzündən silindiyinin şahidi olduğunu söyləyib:** "Ağdama səfər zamanı əvvəllər mövcud olan şəhərin artıq yer üzündən silindiyinin şahidi olduq. Eyni zamanda səfər çərçivəsində Gəncə şəhərinə də getdik. Orada müxtəlif raketlərin zərbəsi nəticəsində dağıntıların şahidi olduq. Biz azad edilən ərazilərə qayıdışın təmin olunması üçün Azərbaycana öz dəstəyimizi davam etdirəcəyik. Öz resurslarımızın bu məsələdə səfərbər olması üçün üzv dövlətlə təmasları davam edəcək və səylərimizin Azərbaycana yönəldilməsi üçün fəaliyyət göstərəcəyik".

**İsmayıl**



# Qarabağ ətrafında vəziyyət müzakirə olunub

## Vladimir Putin Prezident İlham Əliyevə telefonla zəng edib

**Dünən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında vəziyyət, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq vəziyyətin daha da sabitləşdirilməsinin müzakirəsi davam etdirilib.

Söhbət zamanı xüsusi olaraq sülhün, təhlükəsizliyin və regionun davamlı sosial-iqtisadi inkişafının təmin olunması, həmçinin nəqliyyat kommunikasiyalarının bərpası üzrə işin gedişi ətraflı şəkildə nəzərdən keçirilib. Bu baxımdan aprelin 7-də Moskvada Rusiya-Ermənistan yüksək səviyyəli görüşünün yekunları nəzərə alınıb. Müxtəlif formatlarda təmasların fəallaşdırılması qərara alınıb.

# BMT Baş Assambleyasının sədrinin Azərbaycana səfəri başlayıb



**BMT Baş Assambleyasının Sədri Volkan Bozkırın Azərbaycana səfəri başlayıb.**

Bu barədə "Report"un yerli bürosuna sədrin sözçüsü Brenden Varma məlumat verib.

O, bildirib ki, V.Bozkır Azərbaycanda Prezident İlham Əliyev tərəfindən qəbul ediləcək, Milli Məclisin sədri Sahibə Qafarova və xarici işlər naziri Ceyhun Bayramovla görüşəcək.

İşgüzar səfər 12 aprel tarixində yekunlaşacaq.

*Qeyd edək ki, V. Bozkır BMT Baş Assambleyasının sessiyasına sədirlik edən ilk türk diplomatdır.*

# Erməni cəmiyyəti geriyə dönməyəcək

## Koçaryana yenidən şans vermək intihara bərabərdir

Ermənistanın sabiq prezidenti Robert Koçaryan növbəti dəfə 10 noyabrda imzalanmış üçtərəfli razılaşmanı "ədalətsiz" adlandırıb. Koçaryan deyib ki, əgər tərəflər "münaqişə"yə birdəfəlik son qoymaq istəyirsə, gərək onun "ədalətli" həllini tapsınlar. Eks rəhbərin fikrincə, bu cür sülh uzunmüddətli və əbədi ola bilməz:

"Düşünürəm ki, hər şey itirilməyib və ən azı danışıqlar prosesində, əvvəllər Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmuş əraziləri müzakirə etmək olar. Hansı statusda, necə? Bu çox mürəkkəb prosesdir. Lakin düşünürəm ki, burada hansısa mümkün perspektivlər var".

**Koçaryanın sərsəm ifadələrini "Şərq"ə dəyərləndirən politoloq Tofiq Abbasov bildirib ki, Ermənistanın ikinci prezidenti yenidən hakimiyyətə qayıtmaq niyyətini gizlətmir. Siyasi şərhçinin sözlərinə görə, artıq reallıqlar dəyişdiyi üçün köhnə siyasi baqajla hakimiyyətə gəlmək qeyri-mümkündür:** "Köhnə ideyalarla yeni reallığa ayaq uydurmaq problemlidir. Ermənistan məhz zərərli ideyaların ucbatından zəlil vəziyyətə düşüb. Rəsmi Bakı 20 ildən artıqdır Yerevanı danışıqlarda ciddi olmağa, qeyri-konstruktiv mövqe sərgiləməməyə çağırsa da, Ermənistan hökumətləri buna məhəl qoymayıb. Çünki düşmən tərəf özünü həqiqətən "güclü" və "qalib" tərəf kimi görürdü. Status-kvonun dəyişməz olduğunu zənn edirdilər. Azərbaycan sistemli şəkildə mövcud reallığı dəyişdirdi və öz reallıqlarını yaratdı. Əslində kasıb və məğlub Ermənistan üçün də yeni fürsət formalaşıb. Əgər erməni rəhbərliyi düzgün addımlar atsa, ağıllı qərarlar versə, düşdükləri acınacaqlı durumdan tədricən xilas olarlar. Koçaryanın, Sarkisyanın və onların komandasında olan hansısa şəxsin yenidən hakimiyyətə qayıtması Ermənistanın geriyə dönməsidir. İndiki halda isə Ermənistana geriyə yox, irəliyə doğru addım lazımdır. Məncə, artıq erməni cəmiyyəti də dərk edir ki, Koçaryan kimilərinə yenidən şans vermək intihara bərabərdir. Böyük ehtimal ki, xalq koçaryanları tarixin zibilliyinə atacaq. Bu ölkə daim qonşu ölkələri, bütövlükdə regionu risk və təhdid altında qoyduğu üçün Ermənistanda baş verənlər bizim üçün də maraqlıdır".



**İsmayıl Qocayev**

# Bütün hərbi arsenal modernləşəcək

## Ordunun "Türkiyə modeli"nə keçidi həm də NATO standartlarına uyğunlaşması anlamına gəlir



"Türkün yumruğu erməninin başına endirildi. Bu qalibiyyət tarixə qızıl hərflərlə yazılacaq". Bunu Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Azərbaycan Müdafiə naziri Zakir Həsənovla videoformatda görüşü zamanı deyib. Nazir bildirib ki, tarixi və mədəni baxımdan hər zaman bir-birinə bağlı olan iki qardaş ölkə keçmişdə olduğu kimi indiki dövrdə də yan-yanadır.

Akar çıxışı zamanı mühüm məqama da toxunub və Azərbaycan Ordusunun yenidən formalaşacağının anonsunu verib. Nazir vurğulayıb ki, Azərbaycan Ordusunun dövrün tələblərinə uyğun yenidən qurulması, modernizasiya edilməsi və iki qardaş ölkənin silahlı qüvvələrinin gələcəkdə də birlikdə fəaliyyət göstərməsi üçün "Yol xəritəsi" hazırlanıb və reallaşdırılmasına başlanılıb. Xatırladaq ki, Prezident İlham Əliyev bir müddət Türkiyədən yeni silahların alınacağını bildirmişdi. Dövlət başçısı qeyd etmişdi ki, Azərbaycan Ordusu daha güclü və müasir olmalıdır: "Türk Silahlı Qüvvələrinin modeli bizim üçün ən məqbul modeldir. Bundan sonra bu istiqamətdə bərabər çalışacağıq".

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Ordusunun modernizasiyası prosesinə ölkə rəhbəri İlham Əliyevin "Türkiyə modelinə keçəcəyik" bəyanatından sonra başlanılıb:** "Türkiyə modelinin qəbul edilməsi həm orudunun ştat strukturunun, həm də texniki vasitə və avadanlıqlarının uyğunlaşdırılması ilə həyata keçiriləcək. Nazirin "Yol xəritəsi"nin hazırlanması və reallaşdırılmasına başlanıldığı barədə sözləri prosesin ştat-struktur dəyişikliklələri ilə müşayiət olunduğunun ilk siqnalı hesab oluna bilər. Burada əldə olunacaq yeni silah-sursat və texnikaların, həm də bu silahların bölmələrin heyətlərinin sayına, tərkibinə və təyinatına uyğunlaşdırılması nəzərdə tutulur. Əgər ordumuzda "Türkiyə modeli"ndən bəhs ediriksə, bu həm silah-sursat, həm də struktur baxımından NATO standartlarına uyğunlaşma anlamına gəlir".

**İsmayıl Qocayev**



## Normal həyata qayıtmağın yeganə yolu peyvədlənmədir

### Şahmar Mövsümov tvitter hesabındakı paylaşımında deyib

**Artıq Azərbaycanda 1 milyondan çox peyvənd vurulub.**

Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov tvitter hesabındakı paylaşımında deyib.

**O, vətəndaşları peyvəndlənməyə çağırıb:** "Heç bir ciddi fəsad müşahidə edilməyib. Özünüzü və əzizlərinizi qorumağın, normal həyata qayıtmağın yeganə yolu peyvədlənmədir!".

# Kremlin niyyəti ciddidir

## Ukrayna səbəb versə, rus qoşunları dərhal hərəkətə keçəcək



Rusiya ilə Ukrayna arasındakı münasibətlər hazırda postsovet məkanının siyasi müstəvisindəki əsas mövzulardandır. Əslində Qərbin, xüsusilə ABŞ-ın mövqeyini nəzərə alsaq, məsələnin beynəlxalq xarakter daşıdığını söyləyə bilərik. Ekspertlərin proseslərin inkişafı barədə fikirləri isə müxtəlifdir. Siyasi analitik, jurnalist Elçin Alıoğlu bu barədə "Şərq"ə danışdı:

"Rusiya Ukrayna ilə sərhəd boyunca canlı qüvvə, silah, sursat və hərbi texnika yığır. Rusiya hərbçilərinin Ukrayna ilə dövlət sərhədini keçmək niyyətində olduqlarını yalnız həmin arealda hərbi-səhra hospitallarının yaradılmasından sonra demək olar. Hospitallar yoxdursa, Kremlin ciddi döyüşlərə hazırlaşdığından bəhs etmək əbəsdir. Qoşunları sərhəd yaxınlığına yığmaq başqa, orada yanacaq, sursat anbarları və hospitallar yaratmaq başqa. Maddi-texniki təminatın gücləndirilməsi, lokal məkanda bəhs etdiyim obyektlərin yaradılması niyyətin ciddiliyinin göstəricisidir".

O, həmçinin tərəflərin məqsədlərini də açıqladı: "Ukrayna indi həddən artıq diqqətli və ehtiyatlı olmalı, rusiyalı hərbçilərə aktivləşmək üçün səbəb verməməlidir. Çünki Rusiya belə səbəbdən dərhal istifadə edəcək. Rəsmi Kiyevin istədiyi Donetsk və Luqanskdakı terrorçu-separatçı xuntalara son qoymaqdır. Rusiyanın arzusu isə Odessaya çıxış əldə etmək, bu minvalla Ukraynanı Qara dənizə çıxışdan məhrum etmək, habelə Mariupol və Berdyanska irəliləyiş vasitəsilə Krım üçün "dəhliz" yaratmaqdır".

**Kənan Novruzov**

## Yerevanda itkin düşən hərbçilərin yaxınları nazirliyə gedən yolları bağlayıb

**Yerevanda müharibə vaxtı itkin düşmüş hərbçilərin yaxınları növbəti dəfə etiraz aksiyası keçirib.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, etirazçılar Ermənistan Müdafiə Nazirliyinə gedən bütün yolları bağlayıb.

Hadisə yerinə çoxlu sayda polis qüvvələri, o cümlədən hərbi polis cəlb edilib. Aksiya iştirakçıları itkin düşən əsgərlərlə bağlı bu günədək hökumətdən cavab almadıqlarını bildirir.





# Avropalılar rusların vəhşiliklərini unutmayıblar

## Buna görə Qərb ölkələri Amerikanın himayəsinə məcburdur

"Qərb diktə edə bilməyəndə öldürür. Hətta Rusiya olsa da".

Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, ABŞ-Rusiya arasındakı münasibətləri "Şərq"ə şərh etdi: "Amerikaya özündən qat-qat zəif, lakin "cibində" nüvə silahı olan aqressiv Rusiya lazımdır. Rusiya Avropa ölkələrinin başı üzərində asılmış "Domokl qılıncı"dır.

Rusların 1945-ci ildə Almaniyada, 1956-cı ildə Macarıstanda etdiyi vəhşilikləri avropalılar unutmayıblar. Bu isə həmişəki kimi, Avropanı Amerikanın himayəsinə sığınmağa məcbur edir.

Rusiya tam çökəcəyi halda Avropa ölkələri: Fransa və Almaniya başda olmaqla Amerikanın nüfuz dairəsindən qurtulmağa çalışacaq. Belə bir ideya hələ məşhur fransalı yazıçı Viktor Hüqonun əsərlərində Avropa Birləşmiş Ştatları adı ilə ideya kimi keçirdi".

*Ə.Əlibəylinin sözlərinə görə, Moskva ilə mübarizə aparmaq Avropa üçün heç də çətin deyil:* "Təbii ki, belə bir hal Amerikaya sərf etməyəcək. Bunun üçün tarixə nəzər salmaq kifayətdir. 1800-cü ildə rus imperatoru I Pavel Britaniyanın qatı düşməni olan Fransa imperatoru Napoleon Bonapart ilə gizli müqavilə bağlayaraq, fransız-rus ordu birləşmələrinin Britaniyanın o vaxt müstəmləkəsi olan Hindistana yürüş planı hazırlayırdı.

Lakin bundan xəbər tutan Britaniya kəşfiyyatı həmin an Pavelin ən çox inandığı Peterburqun qubernatoru qraf Pyotr Palenin başçılıq etdiyi bir dəstə zadəgan vasitəsi ilə 1801-ci ilin martın 24-də gecə saatlarında Paveli qətlə yetirərək, Rusiyanın siyasi xəttini özünün sərf etdiyi istiqamətə yönəltməyə asanlıqla nail oldu. İndi reallıq, bəlkə də budur: Rusiya rəhbərliyi Amerika-Britaniya cütlüyünün mənafeyinə zidd olan siyasət yeritmiş olsa idi, onlar üçün Rusiya hakimiyyətində dəyişiklik etmək heç də çətin deyil.

Milyardlarla sərmayə, on minlərlə insan itkisi bahasına başa gələcək və nəticəsi bəlli olmayan nəhəng Rusiya ilə müharibə aparmaqdansa, bir saatlıq hərbi çevriliş etmək daha asan və qarantlıdır".

**Kənan Novruzov**

# Paşinyan Putinin “ayaqlarına düşüb”

**Baş nazir seçkilərdə qalib olmaq üçün bütün imkanlarını səfərbər edib**



Moskvada Ermənistan Baş naziri Nikol Paşinyanla Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüşün nəticələri məlum olub. Görüş zamanı Putin Ermənistanın inkişafı üçün bölgədə kommunikasiyalar üzərindən blokadanın götürülməsinin vacibliyini qeyd edib.

Kreml rəhbərinin sözlərinə görə, regionda iqtisadi-ticarət əlaqələri və nəqliyyat marşrutlarının bərpa olunması Ermənistanın inkişafı üçün yeni imkanlar yaradacaq. Növbədənkənar seçki öncəsi Moskvaya səfər edən Baş nazir Nikol Paşinyan Putinlə görüşünü ”çox intensiv və məhsuldar” adlandırıb: ”Üç saat yarımlıq görüşdə Vladimir Putinlə bir çox məsələni müzakirə etdik. Heç bir razılaşma imzalanmamasına baxmayaraq görüş məhsuldar keçdi”. Paşinyan hər görüşdə olduğu kimi bu dəfə də Azərbaycan tərəfindən şikayətlənib. Baş nazir rəsmi Bakını 10 noyabr üçtərəfli bəyanatının şərtlərinə ”əməl etmədiyini” iddia edib. Növbəti dəfə ”əsir və girovlar” məsələsini qabardaraq, müharibədən sonra Azərbaycan əsgərləri tərəfindən yaxalanan erməni diversantlarının qaytarılmamasından gileylənib.

**Görüşlə bağlı fikirlərni ”Şərq”lə bölüşən politoloq İlqar Vəlizadə bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyanın Rusiya səfəri və Prezident Vladimir Putinlə görüşü seçkiqabağı kampaniya dövründə baş tutdu. Analitik səfərə daha çox bu prizmadan yanaşmaq lazımdır:** ”Paşinyan Moskva səfərindən maksimum nəticələrlə geri dönməyi ümid edirdi. Baş nazirin görüşdə əsas tələbinin ”əsirlərlə” bağlı olacağı əvvəlcədən məlum idi. Çünki hazırda Ermənistan cəmiyyətinin və ona qarşı olan müxalif güclərin gündəmdə saxladığı və baş nazirin qarşısına qoyduğu məsələ həbs olunan erməni terrorçuların Yerevana qaytarılmasıdır. Rəsmi Bakı tamamilə haqlı olaraq erməni əsgərlərini əsir hesab etmir və onları geri vermək niyyətində olmadığını vurğulayır. Paşinyan isə hər fürsətdə Putindən xahiş edir ki, Kreml rəhbəri Azərbaycana təzyiq göstərsin və terrorçuların azad olunmasına yardımçı olsun”.

**“Paşinyan Moskva səfərindən maksimum nəticələrlə geri dönməyi ümid edirdi. Baş nazirin görüşdə əsas tələbinin “əsirlərlə” bağlı olacağı əvvəlcədən məlum idi”**

**İ.Vəlizadə vurğulayıb ki, Paşinyan Yerevanla Moskva arasında sıx təmasların olduğunu göstərmək istəyir:** ”Elə görüntü yaratmaq istəyir ki, guya, Kreml rəhbəri gələcək münasibətlərini Robert Koçaryanla deyil, Paşinyanla qurmaqda maraqlıdır. Məlumdur ki, bir həftə öncə Putin-Koçaryan görüşü reallaşıb. Ermənistan müxalifəti iddia edir ki, Rusiyanın əsas seçimi Koçaryandır. Paşinyanın məqsədi bu iddianın əsassız olduğunu göstərməkdir. Daha doğrusu, bu cür təsəvvür formalaşdırmaqdır. Baş nazir üçtərəfli bəyanatın yerinə yetirilməsində özünü Kremlin ən etibarlı tərəfdaşı sayır. Paşinyan Koçaryanın revanşist mövqedə olmasından öz xeyrinə istifadə edir. Görüşdə Paşinyan daha çox gələcək planlardan, təşəbbüslərdən danışır, görüləcək işlərlə bağlı fikir mübadiləsi aparırdı. Baş nazir hesab edir ki, gələcəklə bağlı hansısa ilkin razılıqlar əldə edərsə, Putindən vəd alarsa, deməli Kreml onun hakimiyyətdə qalacağına imkan verəcək”.

**İsmayıl Qocayev**



## Azərbaycan və Türkiyə ordularının birgə təlimləri başlayıb



**Azərbaycan və Türkiyə ordularının əməliyyat-taktiki təlimləri başlayıb.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, təlimlər Azərbaycan Ordusunun hərbi birliklərinin cavabdehlik zonalarının müxtəlif istiqamətlərində yerləşən ümumqoşun poliqonlarında keçirilir.

Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir.

*Təlimlər aprelin 9-na kimi davam edəcək.*

# Laçın şəhərinə giriş imkanları genişlənəcək

## Xudafərin-Qubadlı-Laçın yolunun çox böyük əhəmiyyəti olacaq



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Ermənistanın işğalından azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı tikinti işləri həyata keçirir.**

Məlumata görə, işğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometr təşkil edəcək. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 17 kilometr uzunluğunda yeni avtomobil yolunun da inşası nəzərdə tutulub.

**İqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında Xudafərin-Qubadlı-Laçın yolunun əhəmiyyətindən danışıb. Ekspert vurğulayıb ki, Xudafərin-Qubadlı-Laçın yolunun tikintisi sona çatdırıldıqdan sonra onun tək iqtisadi yox, həm də siyasi əhəmiyyəti olacaq:** ”Çünki dəhliz də Laçın şəhərində yerləşir. Bunu nəzərə alaraq, demək mümkündür ki, Azərbaycanın cənub hissəsindən Laçın şəhərinə giriş imkanları genişlənəcək. Təbii ki, bunun da həm strateji, həm siyasi, həm də iqtisadi əhəmiyyəti var. Bu yolun tikintisi bitdikdən sonra regionun ümumi koordinasiyalı şəkildə inkişafı ilə bağlı işlərin görülməsi daha da asanlaşacaq. Çünki işğaldan azad olunmuş torpaqlarımızda iqtisadiyyatı gücləndirmək lazımdır. Burda logistika çox önəmli rol oynayır. Logistikanın da əsas əhəmiyyəti ondan ibarət olmalıdır ki, regionda yerləşən rayonların və şəhərlərin bir-birilə sıx əlaqəsi olsun. Bu zaman iqtisadi fürsətlər daha da genişlənə bilər”.

**Aynurə Pənahqızı**

**Ukrayna və Rusiya arasında gərginlik davam edir. Durum həddindən artıq kritikdir. Kiyev rəsmən NATO-nu öz hava məkanında birgə patrul nəzarəti təşkil etməyə çağırıb. Rusiya isə Krım və Donbass istiqamətinə ordu cəmləməyə davam edir.**



# Ukrayna böyük sınaq qarşısındadır

## Bir də ərazilərini itirsə dövlət kimi parçalana bilər

Tərəflər eyni zamanda kütləvi informasiya vasitələri üzərindən bir-birinə qarşı ”əsəb müharibəsi” aparır, psixoloji qıcıq yaradan, təhrikedici açıqlamalar verirlər. Dünəndən etibarən Ukrayna hərbçiləri Donetsk ətrafı əraziləri 120 mm-lik minaatanlardan atəşə tutur. Separatçıların qarşılığı nəticəsində Ukrayna hərbçilərindən biri qəlpə yarası alıb. Bu arada Rusiya Prezidenti Vladimir Putinlə Almaniya kansleri Angela Merkel arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı Putin Kiyevin məqsədyönlü şəkildə Donbassda vəziyyəti qızışdırdığını bildirib. O, Kiyevin Donbassla bağlı razılaşmalara əməl etməsi gərəkdiyini vurğulayıb.

**İki ölkə arasındakı gərginliyi ”Şərq”ə təhlil edən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, proseslər bu cür artan templə davam edərsə, hərbi əməliyyatların genişlənməsi qaçılmaz olacaq:** ”Əlbəttə, mövcud gərginliyin genişmiqyaslı hərbi əməliyyatlar fazasına keçməsini əsla istəməzdik. Çünki hər iki ölkə ilə çoxşaxəli əlaqələrə malikik və hər iki ölkə müttəfiqimiz sayılır. Lakin hadisələrin gedişinə, proseslərin inkişafına bizim istəyimiz yox, bu iki ölkənin hər birinin geopolitik və milli maraqları yön verəcək. Yekun nöqtəni də rəsmi Moskva və Kiyev qoyacaq. İlk baxışdan, tərəflərin hər biri öz-özlüyündə ”haqlı” kimi görünür. Lakin prosesdə əsas haqlı tərəf sözsüz ki, Ukraynadır. Çünki söhbət Ukraynanın ərazi bütövlüyünü bərpa etmək, Krımı geri almaq, Donbassda və digər məntəqələrdə separatçılıq meyillərinə son qoymaq istəyindən gedir. Bu istəyini ortaya qoymaq Ukraynanın təbii haqqı, hüququdur. Ona görə də Ukrayna bu gün böyük sınaq qarşısındadır. Əgər savaş başlayarsa, Ukrayna bu savaşda mütləq qalib gəlməlidir. Kiyev qələbə qazanmağa məhkumdur, çünki başqa yolu yoxdur. Əks halda, Ukrayna yeni ərazilərini də itirə və ümumiyyətlə, bir dövlət kimi tamamilə parçalana bilər”.

**İsmayıl Qocayev**

# Paşinyan Moskvadan əliboş qayıtdı

## Putin imkan yaratmadı, baş nazirin sualları dəftərçədə qaldı



*"Əslində ən maraqlı məqam o idi ki, tərəflər bir-birilə səmimi davranmadılar"*

Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşüb. Qarabağ münaqişəsi ətrafında vəziyyətin müzakirəsindən tutmuş ikitərəfli əlaqələrə qədər çox böyük sahələri əhatə edən məsələlər müzakirə mövzusu olub. Putin üçün əsas məsələ Qarabağ və onun ətrafında vəziyyətin normallaşdırılması hesab olunurdu.

Paşinyanın Moskvaya çağırılmasında əsas məqsədi heç də iki ölkə arasında mal dövriyyəsinin artırılması yollarını müzakirə etmək deyildi. Rusiya prezidenti daha ciddi məsələləri gündəliyə qoymuşdu və elə buna görə də görüş 3 saatdan artıq davam etdi.

Moskvaya səfər Paşinyanın gözləntilərini doğrultdumu?

**Sualımızı cavablandıran siyasi analitik Turab Rzayev "Şərq"ə açıqlamasında görüşün planlaşdırıldığı kimi uğurlu alınmadığını söyləyib:** "Bunun əsas səbəbi, tərəflərin bir-birinə səmimi olmamaları idi. Əlbəttə, Paşinyanın görüşdə məqsədi siyasi idi. O, siyasi olaraq ona qarşı rəqiblərin hazırlandığı, xüsusilə Rusiya mediası və Putinin Robet Koçaryana dəstək verməsini görür və buna qarşı özünü müdafiə etmək ehtiyacı duyurdu. İstəyirdi ki, Putin onun yenidən seçilməsinə mane olmasın. Rusiya mediası son vaxtlar Ermənistanın eksprezidenti R.Koçaryana xüsusi yer ayırır. Eyni zamanda Putinin Koçaryanı ad günü münasibətilə təbriki və müəyyən məsələlərdə onunla məsləhətləşməsi Paşinyanı çox narahat edir.

Ermənistan iqtisadi cəhətdən çöküb. Nə valyuta ehtiyatları var, nə də əhalini qida ehtiyatları ilə təmin edə bilirlər. Deyilənə görə, marketlərdə yumurta, yağ və digər qida məhsulları çatışmır".

**Analitik qeyd edib ki, görüşdə Rusiya tərəfi bir daha bölgədə hakim olduğunu və Paşinyan üzərindəki təsirini dünyaya göstərmək istəyirdi:** "Əslində hər iki tərəf qeyri-səmimi davranırdı. Paşinyan Rusiyadan nə qədər iqtisadi yardım istəsə də, yenə öz mövqeyi möhkəmlənən kimi qərbə doğru meyillənəcək. Eyni zamanda Putin Paşinyana ürək-dirək verib, seçkilərə qrışmayacağını bildirsə də, əl altından Koçaryana dəstək verməyə davam edəcək. Ən azından Koçaryan seçilməsə belə, Paşinyan şantaj və təsir üsulu kimi Putinin əlində qalmağa davam edəcək.

Görüşdə baş verən digər maraqlı məqam o idi ki, Paşinyan dəftərçəsinə xeyli məsələləri qeyd etmişdi ki, onları səsləndirsin. Lakin bəlli oldu ki, o, yazdığı məsələlərin çoxunu səsləndirə bilməyib, daha doğrusu, Putin buna şərait yaratmayıb. Digər tərəfdən Putin görüş boyu Paşinyanın atasının adını səhv tələffüz edib.

Putinin bunu qəsdlə, yaxud yanlışlıqla etdiyini demək çətindir. Çünki onun əvvəllər də dünya liderləri ilə görüşlərində qeyri-adekvat addımlar atdığı bəllidir.

**Yeganə Bayramova**



# "Metsamor"un hazırkı vəziyyəti çox təhlükəlidir

## Paşinyan mövzunu gündəmə gətirməklə xaricdən maliyyə dəstəyi umur

**Ötən gün Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş baş tutub.** Kremldə baş tutan təmasda Paşinyan Ermənistanda Rusiyanın iştirakı ilə yeni atom elektrik stansiyasının (AES) tikintisi məsələsini müzakirə etmək niyyətində olduğunu deyib.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli bildirib ki, Paşinyanın bu addımı atmasının bir neçə məqamı var:** "Bildiyimiz kimi, Ermənistanda olan "Metsamor" AES-in atom reaktorlarının hazırkı vəziyyəti çox təhlükəlidir. Onun hər hansı reaktorunun sıradan çıxması regionda, bütövlükdə Cənubi Qafqaza çox öldürücü təsir göstərə bilər. İlk olaraq bu məsələləri həll etmək lazımdır. Onun ən üst səviyyədə təhlükəsizliyi təmin olunmalıdır. İkinci məsələ görünür ki, Ermənistan "Metsamor"dan artıq imtina etməlidir, yəni artıq onun alternativ enerjiyə ehtiyacı var".

Ə.Əlibəyli əlavə edib ki, ümumiyyətlə, AES-lərin tikintisi bir az beynəlxalq təhlükəsizlik məsələsidir: "Paşinyanın belə addım atması Qərbdən hansısa maliyyə cəlb etmək niyyəti də daşıya bilər. Həmçinin lobbi dəstəyi verilsin. Ümumiyyətlə, fikrimcə, yeni AES-in tikintisi həqiqətən də yeni təhlükəsizlik problemlərinin meydana çıxmasına səbəb olacaq".

**Aynurə Pənahqızı**



# Moskva yalan danışır

## Amerikalı analitik: "Rusiya Qarabağla bağlı öhdəlikləri pozur"

**Son günlər siyasi gündəmi məşğul edən, politoloqları düşündürən əsas məsələlərdən biri Şuşaya atılan "İsgəndər- M" raketlərinin qalıqlarıdır.**

Suallar kifayət qədər çoxdur. Dəqiq bilinən isə düşmən dövlətin bu silahı istehsal etməməsidir. Deməli, "Su bir az da bulanır". Rusiya isə özünü "süddən çıxmış ağ qaşıq" kimi aparır.

**Amerikalı siyasi analitik Paul Geblo "Şərq"ə açıqlamasında məsələyə belə münasibət bildirdi:** "Bu o deməkdir ki, bəzi qüvvələr Ermənistanı fəlakətin astanasından qaytarmaq və tam məğlubiyyətin qarşısını almaq istəyiblər. Belə demək mümkünsə, sözügedən cəhd "Suda boğulanın saman çöpündən yapışması idi". Lakin Moskva yalan danışır. Qarabağla bağlı öhdəliklər pozulur".

**Kənan**

# Ermənilər çox vəhşi millətdir

## Qarabağa səfər edən əcnəbi ölkəsinə bu informasiyanı aparacaq

Son aylar ərzində işğaldan azad edilmiş ərazilərimizə çoxsaylı səfərlər reallaşdırılıb. Mütəmadi olaraq əcnəbi jurnalistlər, səfirlər, diplomatik korpusların nümayəndələri, müxtəlif ölkələrin parlament üzvləri Qarabağa aparılıb. Bir neçə gün öncə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin nümayəndələrinin Ağdama səfəri təşkil edilib.

Ötən gün isə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə və digər dinlərə məxsus konfenssiyaların rəhbərləri Qarabağa gediblər. Düşməndən azad edilmiş torpaqlarımızı ziyarət edən hər bir xarici qonaq erməni vandalizmindən dəhşətə gəldiklərini açıq ifadə ediblər. Ağdamda olan xristian və yəhudi dini icmaların rəhbərləri üzləşdikləri acınacaqlı mənzərə qarşısında məyus olduqlarını dilə gətirdilər. Ekspertlərin fikrincə, Qarabağda quruculuq və bərpa işləri kütləvi hal alanadək işğaldan azad edilmiş rayonlarımıza bu cür səfərlərin təşkil edilməsi, erməni vəhşiliyinin dünyaya daha yaxından və əyani tanıdılması olduqca mühümdür.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında Qarabağa səfərlər təşkil edilməsinin xüsusi önəm daşıdığını söyləyib.** Deputat vurğulayıb ki, xüsusən, xarici qonaqların işğaldan azad edilmiş ərazilərimizə getməsi böyük



**"Xarici qonaqların işğaldan azad edilmiş ərazilərimizə getməsi böyük əhəmiyyət kəsb edir"**

əhəmiyyət kəsb edir: "Real vəziyyətdən maksimum istifadə edərək erməni vəhşiliyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səylərimizi gücləndirməliyik. Ermənilər hər zaman iddia edirdilər ki, guya onlar "haqsızlığa" məruz qalıblar, "əzilən" tərəf onlar olublar. Amma son proseslər əyani göstərdi ki, əslində ermənilər digər xalqlara qarşı əsl barbarlıq törədiblər. O baxımdan müxtəlif ölkələri və dinləri təmsil edən əcnəbilərin Qarabağa aparılması ümumi işimizin xeyrinədir. Əvvəlcə, İslam Əməkdaşlıq Təşkilatının təmas qrupunun üzvləri, daha sonra dini konfessiyaların rəhbərləri bölgəyə səfər etdilər. Orada sadəcə müsəlmanlar deyil, xristian və yəhudi icmalarının rəhbərləri də erməni vandalizmini öz gözləri ilə gördülər. Şübhə yox ki, gördükləri mənzərəni öz ölkələrinin dini mərkəzlərinə çatdıracaqlar. Eyni zamanda müxtəlif tədbirlərdə ünsiyyətdə olduqları çoxsaylı şəxslərlə Qarabağda şahidi olduqlarını bölüşəcəklər. Hesab edirəm ki, qarşımızda duran ən mühüm vəzifələrdən biri erməni vəhşiliyinin dünya ictimaiyyətinə çatdırılmasıdır. Çox vacib məsələdir. Əlxüsus erməni vəhşilikləri ilə yerində tanış olmaq bu barədə ordan-burdan eşitməkdən daha təsirlidir".

**İsmayıl Qocayev**

# Vaksinasiya könüllüdür

## Jurnalistlərə Çin istehsalı olan vaksin vurulacaq



### *Artıq Mətbuat Şurasına redaksiyalardan müraciət daxil olub*

**Azərbaycanda media işçilərinin vaksinasiyası Mətbuat Şurasının (MŞ) binasında baş tutacaq.**

**Bu barədə Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib. O qeyd edib ki, jurnalistlərə Çinin "Sinovac Biotech" şirkətinin istehsal etdiyi "CoronaVAC" vaksini vurulacaq:**

"Artıq iki gündür Azərbaycan Mətbuat Şurasına redaksiyalardan siyahılar daxil olur. Hazırda 150-dən çox müraciət var və qeydiyyata alınma prosesi davam etməkdədir. Qeydiyyata alınmada jurnalistlərin adı, soyadı və mobil nömrəsi lazımdır. Media işçiləri vaksinasiyasına gəldikdə isə üzərlərində mütləq şəxsiyyət vəsiqələri olmalıdır".



Ə.Amaşov bildirib ki, vaksinasiya prosesi mərhələli şəkildə davam edəcək: "Təqribən gün ərzində 50 və daha çox şəxs vaksinasiya olunacaq".

**Məsələ ilə bağlı Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında bildirib ki, jurnalistlər daim insanlarla təmasda olduğu üçün onların vaksinasiyası çox vacibdir:** "Vaksinasiya işinin aparılmasına ciddi şəkildə ehtiyac var. Çünki jurnalistika elə bir sahədir ki, reportyorlar daimi olaraq əhali arasındadırlar. Bu halda isə onların yoluxma halı yüksək olur.

Həmin təbəqə isə daha çox 20-40 yaş arası olur. Bu baxımdan həmin jurnalistlərin ölkə üzrə keçirilən vaksinasiya prosesindən bir qədər fərqli peyvənd olunmalarına ehtiyac var.

Bir neçə gün öncə biz jurnalistlərin COVID-19-a yoluxma statistikasını açıqlamışdıq. Ölkə üzrə 205-dən çox yoluxma, 10 nəfər jurnalist həmkarımız isə koronavirusdan dünyasını dəyişib.

Artıq MŞ ölkənin bütün media qurumlarına müraciət etdi ki, KİV redaksiyaları özlərinin 18-20 yaşdan yuxarı əməkdaşlarının ad, soyad və əlaqə nömrələrini anketləşdirib Mətbuat Şurasına göndərsin.

Bundan sonra MŞ həmin məlumatları toplayacaq, müəyyən vaxt təyin edib vaksinasiyanı təşkil edəcək".

**M.Ələsgərli peyvəndləmənin könüllülük prinsipi üzrə reallaşacağını da bildirdi:** "Bu gün səhərə olan məlumata görə, artıq 50-dən çox müraciət daxil olub. Yəni burada fərdi müraciət deyil, ümumilikdə redaksiyalar müraciət edir. Vaksinasiya könüllü şəkildə həyata keçiriləcək. Yəni kim istəsə bunu öz çalışdığı redaksiyaya bildirəcək. Redaksiya da onun haqqında məlumatı Mətbuat Şurasına göndərəcək.

Bunun əsasında da vaksinasiya keçiriləcək".

**Ağarza Elçinoğlu**



# Neftin qiyməti nə 40 dollar oldu, nə də 100 dollar...

### Mütəxəssislər tərəfindən verilən proqnozların heç biri özünü doğrultmayıb

**Beynəlxalq Valyuta Fondunun (BVF) yenilənmiş proqnozuna əsasən, bu il xam neftin bir barelinin orta qiyməti 41,7 faiz artaraq 58,52 ABŞ dolları təşkil edəcək.**

"World Economic Outlook" hesabatının aprel buraxılışında 2022-ci ildə neftin orta qiyməti 6,3 faiz azalaraq 54,83 dollara enəcək. BVF 2021-ci ildəki gözlənən artımın əsas səbəbləri kimi, bazarda azalmış təklifin (OPEC və "OPEC+" çərçivəsində mövcud hasilat məhdudiyyətləri), qlobal neft ehtiyatlarının tədricən azalması və tələbin artmasını göstərir. Bundan əlavə, BVF bildirib ki, 2020-ci ilin avqust və 2021-ci ilin fevral ayları aralığında neftin orta qiyməti 39 faiz artıb. Artımın əsas drayveri Asiyada COVİD-19-a qarşı vaksinasiyanın sürətlə yayılmasının əhəmiyyətli iqtisadi bərpaya yol açması olub.

**Neft Araşdırmalar Fondunun rəhbəri İlham Şaban "Şərq"ə açıqlamasında qeyd edib ki, bugünədək ümumiyyətlə, bir çox mütəxəssislər tərəfindən verilən proqnozların heç biri özünü doğrultmayıb:** "Bir çox insanlar proqnoz edirdilər ki, neftin qiyməti 40 dollardan aşağı düşəcək. Kimisi isə əksinə, 100 dollar olacağını qeyd edirdilər. Yəni söhbət ilin əvvəlindən gedir. Amma deyilənlər heç də özünü doğrultmadı. Bir məsələni qeyd edim ki, neftin orta qiymətinin real olaraq 60 dollar olması gözlənilir".

**Aynurə**

# "7 dəfə bloklandım"

## "Mən Qarabağ savaşı günlərində feysbukda çox fəal idim"

44 günlük Vətən savaşı dövründə Türkiyə başda olmaqla türkdilli dövlətlər Azərbaycanın həqiqətlərinə biganə qalmadılar. Ən azından ayrı-ayrı ictimai şəxslər bəyanatlar verdilər, rəsmi Bakını dəstəklədiklərini dedilər. Çünki onlar tarixi faktlara yaxşı bələddirlər. Onlardan biri də Qazaxıstan Respublikasının ictimai xadimi, Qazaxıstan Jurnalistlər Birliyinin üzvü, Beynəlxalq "Azərbaycan dünyası" jurnalının Qazaxıstandakı nümayəndəsi Nasixa Qumarqızıdır. O, son vaxtlar baş verənlərlə bağlı "Şərq"in suallarını cavablandırdı:



**"Təəssüf ki, nə Qırğızıstan, nə Qazaxıstan, nə də Özbəkistandan dövlət səviyyəsində lazımi dəstəyi görmədim. İradımı yerli hökumətə də bildirdim"**

**- Siz Azərbaycanın haqq səsini dünyaya çatdıran, Qarabağ haqqında kitablar yazan ictimai xadimlərdənsiniz, ölkəmizlə bu qədər sıx əlaqələrinizin səbəbi nədir?**

- Qarabağ münaqişəsi haqqında hələ sovet dövründə eşitsəm də, onun otuz il davam etdiyini bilmirdim. 1992-ci ildə törədilən Xocalı faciəsindən, həmçinin digər qətliamlardan xəbərim var. İlk dəfə 2017-ci ildə Azərbaycana gəldim, gözəl Bakıda oldum. Sonradan təəssüratlarımdan ibarət "Bakı bir qazaxıstanlının gözü ilə" kitabını yazdım. Təqdimat ölkənizdəki televiziyalardan birinin canlı efirində həyata keçirildi. Azərbaycanda olarkən Qarabağ həqiqətləri haqqında daha çox öyrəndim. Ermənilərin balaca Zəhranı və nənəsini öldürdüklərini eşidəndə ruhumda hər şey alt-üst oldu. Körpə qız haqqında şeirlər yazıb Azərbaycandakı xəbər saytlarına göndərdim. Həmin şeirlər böyük sürətlə- cəmi iyirmi dəqiqəyə yayıldı. O vaxtdan sonra Qarabağla bağlı daha çox öyrənməyə, oxumağa başladım. Yəni mənim ölkənizlə əlaqələrim Xocalı faciəsi və balaca Zəhra sayəsində başladı. Azərbaycan xalqı bizim qardaşımızdır. Bunu unutmaq olmaz.

**- Bəs Bakıda sonuncu dəfə nə vaxt olmusunuz?**

- 2019-cu ildə. Bakı çox gözəl şəhərdir. Onu sevməmək mümkün deyil. Azərbaycanlıların vətənpərvərliyi, səbri və xoşməramlılığı ilə fəxr edirəm.

**- Qazaxıstan cəmiyyətinin və hökumətinin 44 günlük müharibəyə münasibəti necə oldu?**

- Təəssüf ki, hələ də Azərbaycanın faciəsinə biganə olanlar, Xocalı faciəsini bilməyənlər var. Mən həmin hadisə barədə xüsusi bir tədbir keçirmişdim, video, fotoşəkillər nümayiş etdirmişdim. Fərqli ölkələrdən gələnlər ağlayır və nəhayət, həqiqəti öyrənirdilər. Müharibə günlərində feysbukda çox fəal idim. Hətta yeddi dəfə bloklandım. Təəssüf ki, nə Qırğızıstan, nə Qazaxıstan, nə də Özbəkistandan dövlət səviyyəsində lazımi dəstəyi görmədim. İradımı yerli hökumətə də bildirdim. Bələliklə, iki həftə sonra dövlət başçımız Kasım Comərt- Tokayev Prezident İlham Əliyevə dəstək mesajı yazdı. Bir də Qazaxıstanın Azərbaycandakı səfiri Abdikərimov Serjan Oralbayeviç Gəncənin bombalanmasından sonra həmin şəhərə getdi, dağıntılarla tanış oldu. Ola bilsin, digər rəsmilər də dəstəklərini bildirdilər. Lakin mən bu barədə mediada nəsə görmədim.

**- "Azərbaycan dünyası" jurnalı ay yarımlıq müddət ərzində nələr yazdı, hadisələrə necə yanaşdı?**

- Fəaliyyətim hər iki ölkənin məşhur insanları, həmçinin Qarabağ haqqında bacardığım qədər çox materialları ictimailəşdirməkdən ibarətdir. Silsilə məqalələr yazıram. Eyni zamanda Azərbaycanın qələbəsinə dair məqalə hazırladım. Jurnalın digər bir istiqaməti isə "Qorqud ata", yəni "Dədə Qorqud" irsinin təbliğidir. Mətbu orqanımız Eldar İsmayılovun prezidenti olduğu "Dədə Qorqud" Milli fondu ilə sıx əlaqəlidir. Ona görə uğurunuz barədə məqalə yazmağı özümə borc bildim.

**- Bilirsiniz ki, türkdilli dövlətlər arasında inteqrasiya gedir. Kənar ölkələrin qısqanclığına rəğmən, sözügedən əməkdaşlığın perspektivi haqqında nə düşürsünüz?**

- Fikrimcə, bütün türkdilli ölkələrin birləşməyinin vaxtı çatıb. Türk dünyası yer üzündə sülhə sadiq qalan güclü bir gücdür. Həmçinin bizim hər birimiz müharibəyə qarşıyıq. Perspektivlərin çox böyük olduğunu nəzərə alsaq, hər şeyin yaxşı olacağına inanıram.

**Kənan Novruzov**

# 6 ay təlim kifayətdir

## Yaxşı müəllim yaxşı idarəedici də ola bilər



### Təhsil eksperti nazirin açıqlamasına qarşı çıxdı

"Yaxşı müəllimlər bir o qədər də yaxşı idarəedici olmurlar. Yəni yaxşı müəllim hesab etdiyimiz kadr direktor seçildikdə biz yaxşı müəllimi itirir, heç də yaxşı olmayan bir direktor əldə edirik".

Bunu Təhsil naziri Emin Əmrullayev "AzTV"-dəki çıxışında deyib. Onun sözlərinə görə, direktor olmaq bir o qədər də asan deyil.

**Bununla bağlı öz fikirlərini "Şərq"lə bölüşən təhsil eksperti Kamran Əsədov deyir ki, biz müəllimləri keyfiyyətli təlimlərə cəlb etsək, bu tipli problemləri aradan qaldırmış olarıq:** "İlk olaraq onu qeyd edim ki, yaxşı müəllim sözünün özü bizim təhsil sistemində pis müəllim olmasını göstərir. Amma pis müəllim yoxdur, bildiyini öyrətmək istəməyən müəllim var. İkinci olaraq nəzərinizə çatdırım ki, təhsilin idarə edilməsi üzrə menecerlər mövcuddur. Biz bir çox hallarda orta ümumtəhsil müəssisələrini idarə etmək üçün kadr yetişdirmirik. Həmin o yaxşı müəllim yaxşı idarəedici də ola bilər. Bunun üçün 3-6 aylıq təlimlər təşkil edilərsə, yaxşı məktəb direktoru da görə bilərik. Ona görə ki, yaxşı müəllimin kollektivdə və cəmiyyətdə nüfuzu var və o, neqativ hallara yol verməyəcək. Çox təəssüf ki, biz bu gün mətbuatdakı xəbərlərə əsasən, bəzi məktəb direktorlarının ciddi qanun pozuntusuna yol verdiyinin şahidi oluruq. Biz yaxşı müəllim deyərkən nəzərdə tutduğumuz meyar nisbidir. Yaxşı adlandırdığımız müəllim əgər şagirdləri imtahanlarda yüksək bal toplayan şəxsdirsə, bədən tərbiyəsi, hərbi dərsləri tətbiq edən, lakin nəticəsi olmayan müəllim yaxşı deyilmi? Ümumiyyətlə, bu ifadə yanlışdır. Yaxşı və pisi ölçə biləcək bir meyarımız yoxdur. Yəni sizə görə yaxşı olan, digərinə pis ola bilər, yaxud əksinə. Bu, nisbidir. Məktəblərimizdə fəaliyyət göstərən müəllimlərimizin hər biri yaxşıdır və yüksək statusa malikdir. Təbii ki, bizim üçün ən maraqlı məqam orta ümumtəhsil məktəblərini idarə edə bilmək üçün kadrların formalaşdırılmasıdır. Hesab edirəm ki, bunun üçün biz xüsusi təlimlər təşkil etsək, həm yaxşı müəllim, həm də yaxşı direktor qazanmış olacağıq. Çünki hazırda məktəb direktorlarının əksəriyyətinin cəmiyyətdə reputasiyası zədələnib. Bunun əsas səbəbi isə onların şəxsi keyfiyyət və göstəricilərinin aşağı olmasıdır. Amma biz yaxşı müəllimləri keyfiyyətli təlimlərə cəlb etsək, hesab edirəm ki, bu tipli problemləri aradan qaldırmış olacağıq".



**Aytac Ali**

# 31 nəfər vəfat edib

## Son sutkada 2717 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 717 yeni yoluxma faktı qeydə alınıb, 1 341 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 279 181 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 245 881 nəfər müalicə olunaraq sağalıb, 3811 nəfər vəfat edib, aktiv xəstə sayı 29489 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 581, ötən müddət ərzində isə ümumilikdə 2 977 593 test aparılıb.*

# 8 min dollar tələb edir

## Koçaryan Paşinyanı məhkəməyə verib

**Ermənistanın sabiq prezidenti Robert Koçaryan baş nazir Nikol Paşinyanı məhkəməyə verib.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, bunu R.Koçaryanın vəkili bildirib.

Qeyd olunur ki, sabiq prezident N.Paşinyandan onun barəsində işlətdiyi fikirləri təkzib etməyi və 8 min dollara yaxın təzminat tələb edir.

*Xatırladaq ki, ötən ay N.Paşinyan mitinq zamanı Robert Koçaryan barəsində "2008-ci il mart hadisələrini törədən şəxslər yenidən eyni şeyləri planlaşdırır" fikrini səsləndirmişdi.*

# Tək dövlət bacarmaz, ictimai qınaq vacibdir

### Hamı bir hədəfə vurmasa, fəlakətdən qurtarmaq çətin olacaq

"COVİD-19" virusuna yoluxduğu təsdiq edilmiş şəxslərin müalicə dövründə evdən çıxmaları, ictimai yerlərdə görünmələri yasaqdır. Pandemiyanın davam etdiyi müddətdə polis tərəfindən belə şəxslərin yaxalandığının, inzibati cəza aldıqlarının, cərimə olunduqlarının hələ də şahidiyik. Hər gün Daxili İşlər Nazirliyi paytaxtda, eləcə də regionlarda, müxtəlif rayon mərkəzləri və şəhərlərdə viruslu şəxslərin müəyən edilərək məsuliyyətə cəlb olunmaları barədə xəbərlər yayır.

Viruslu xəstələr gah küçədə, marketdə yaxalanır, gah da qapalı məkanlarda təsbit edilir. Nədir bu, qanunlara saygısızlıq?! Karantin qaydalarını pozan, qadağan olunduğu halda nişan, toy məclisi təşkil edən, yas mərasimi düzənləyənlər də var, əl-qolunu sallayıb küçələrdə gəzənlər də. Əlbəttə, qınanmalı vəziyyətdir. Azərbaycan toplumu qaydalara riayət etməyi sevmir və qanunları görməzdən gəlməyə daha çox meyillidir. Çinin Vuhan şəhərində - hansı ki, bu virus bəlası onlardan dünyaya yayıldı - 90 gün müddətində virusun təsirsiz hala gətirildiyinə dair material paylaşılmışdı. Necə olur ki, 11 milyon əhalisi olan şəhər 90 gündə virusa qalib gələ bilir, amma biz 1 ildən artıqdır virusla bacara bilmirik? Vuhanda sərt qaydalar tətbiq edilib və əhali qaydalara riayət edib. Daha bizim kimi, "filankəsin yasına getməsəm, biabırçılıq olar", "filankəsin nişanıdı, mütləq getməliyəm", "kefimə gəzmək düşüb", deyib küçələri gəzməyiblər, kafe, restoranlarda qabaq-qənşər əyləşib burger yeyib, "Cola" içməyiblər, yəqin ki. İndi də normal həyata dönüblər. Amma bu məsələyə bir az başqa tərəfdən də baxmaq zorundayıq. Hər şeydə hər sıxıntıda əhalini günahlandırmaq da düzgün olmaz. Problemə obyektiv nəzər salmalıyıq. Tutalım, bir ailənin 3 üzvündən 3-ü də virusa yoluxubsa, onların gündəlik tələbatını kim ödəməlidir? Yaxınlıqda, qohum-əqrəba olmaya bilər, qohum-əqrəbanın gəlib-getmək imkanları məhdud ola bilər və sairə. Hüquq-mühafizə orqanları tərəfindən yaxalanan "COVİD" xəstələri çox zaman elə belə də deyir: "çıxmışdım çörək almağa", "aptekə gedirəm". Yəni bu insanların kənardan köməyi, dəstəyi yoxdursa, əlbəttə, məcbur olub ərzaq, dərman ehtiyaclarını ödəmək üçün özü evdən çıxacaq. Çünki alternativ yoxdur. Bu vəziyyətdə həmin şəxsləri cərimələmək və onlardan evdə qalmalarını tələb etmək nə dərəcədə doğrudur?






### "Elə koronavirus xəstələri var ki, qəsdən əllərini yelləyə-yelləyə cəmiyyətin arasında dolaşırlar"

**Sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, əlbəttə, COVİD-19 virusuna yoluxanların ictimai yerlərə çıxması, xüsusən də qapalı məkanlarda olması virusun daha da yayılmasına səbəb olur və bu, yolverilməzdir. Lakin belə insanlar 2 tipə bölünür:**

- Birincisi, buna məcbur olanlar və bunu bilərəkdən, məsuliyyətsizlikdən, hətta qəsdən edənlər. Birinci qrupa daxil olanları başa düşmək olar - onlar ərzaq, dərman almaq üçün evdən çıxmağa məcbur olanlardır. Onların bunu etməməsi üçün xüsusi yardım mərkəzi yaradılmalı və onların zəruri vasitələri almasına kömək edilməli idi, necə ki bir çox ölkələrdə belə edilir. Təəssüf ki, bizdə ilk günlərdə sanki kampaniya xatirinə bəzi yerlərdə bunu etsələr də, sonralar bu missiya davam etdirilmədi. Nəticədə belə şəxsləri qınamaq üçün heç bir əsas qalmır artıq. İkinci qrupla isə məsələ bir qədər çətindir. Bunlar bivec, laqeyd və məsuliyyətsiz olduqlarından heç nəyə əhəmiyyət vermədən ictimai nəqliyyatdan istifadə edir, sərnişin sıxlığı yaşanan, bildiyimiz basabas avtobuslara minir, kafe, restoran və sair qapalı məkanlara girir və yüzlərlə adamı yoluxdururlar. Mənə hətta bəzilərinin bunu qəsdən etdiklərini də deyiblər. Belələrinə qarşı heç ictimai qınaq da yoxdur. Ən azı, ailə üzvləri, xəstə olduğunu bilən qohum, qonşu və dostları onlardan bu hərəkətlərindən əl çəkmələrini xahiş edə bilər. Lakin görünür, belələrinin ətrafındakılar da özü kimi məsuliyyətsizdir ki, heç kim heç nə demir, qarşısını almırlar. Bu adamlar ölkəyə istənilən düşməndən daha çox zərər vururlar və bütün xalqı bəlaya salırlar. Sonra da deyirik ki, niyə sərt karantin tətbiq edilir.

**Sosioloq hesab edir ki, "Covid" xəstələri ictimai yerlərdə, xüsusən qapalı məkanlarda yaxalanarlarsa, bu məsələ araşdırılmalı, əgər səbəbsiz, yəni son məcburiyyət halı olmadan bunu ediblərsə, həmin şəxslər sərt cəzalandırılmalıdır:**

- Bu tip epidemiyalar ilə mübarizə təkcə hökumətin gücü daxilində deyil, əhali də bu işdə dəstək verməlidir. Bu fəlakətdən qurtulmaq üçün hamı bir hədəfə vurmalı, yoluxmanın artmasına imkan verməməliyik. Bir az məsuliyyətli və vicdanlı olmaq kifayətdir.

**Məlahət Rzayeva**

# “28 illik həsrətimə son qoyuldu"

## Afət Telmanqızı: “Atamın məzarını çox axtardım, tapa bilmirdim”

### “Bir qohuma zəng etdim, yerini nişan verdi, tapdım. Ziyarət elədim, mənəvi təskinlik, rahatlıq tapdım”



Bu günlərdə Azərbayjan curnalistlərinin bir qrupu Qarabağa - Zəngilana səfər edib. Zəngilanın görüşünə gedənlər arasında müstəqil curnalist, "LAF" internet televiziyasının yaradıjılarından biri, teleaparıjı Afət Telmanqızı da olub. Afət xanım əslən Zəngilan rayonundandı. Onun sosial şəbəkə üzərindən məzarlıqda çəkilmiş foto ilə "Ata, mən gəldim!,," paylaşımı diqqətimizi çəkdi. Həmkarımızın doğma ata yurdunda keçirdiyi hisslər, qarşılaşdığı mənzərə haqqında öz dilindən eşitmək istədik.

*Aydın idi ki, çox gərgin bir səfər olub. Övladın 28 il sonra ata ilə "görüşməsi" müqabilində dünyanın bütün digər həsrətləri sönük qalır. Afət xanımın Zəngilan - Ata həsrəti barədə danışarkən çətinlik çəkməsi tez-tez köks ötürməsindən aydın idi:*

- Zəngilan işğaldan azad olunanda keçirdiyim sevinj, qürur hissləri sözlə ifadə ediləsi deyil. Zəngilana ayaq basajağımı biləndə də eyni hissləri yaşadım Mən hər yay ora gedirdim - nənəmin, babamın yaşadığı rayona, kəndə. Tətil günlərini səbirsizliklə gözləyirdim. Nənəmin, babamın yanına jan atırdım. 28 il keçirdi o xoşbəxt günlərimdən. Bilirdim ki, Zəngilan xarabalığa çevrilib, erməni vandalları viran qoyub yurdumuzu. Amma yenə də ümid edirdim ki, salamat qalmış nəsə olar, zədələnməmiş bir ev görərəm. Gördüklərimiz dəhşətin ən son həddidir. Bu barədə çox danışmaq istəmirəm. Hamımız televiziyada izləmişik o görüntüləri. Qarabağa təşkil olunan səfərlər zamanı gedənlər də görüb, fotolar paylaşılıb. Amma yenə də insanın gedib öz gözləri ilə görməsi, viran qalmış yurdların naləsini eşitməsi başqadır. Çox ağırdır, buna dözmək



**Afət Telmanqızı atasının məzarını çətinliklə tapdığını da söylədi:**

- Zəngilan mənim uşaqlıq xatirələrimdi, hər şey deməkdi mənim üçün. İnsan doğma Vətənini hansı sözlərlə tərif edə bilər, hansı sözlərlə izah edə bilər?! Orda uşaqlıq xatirələrim, şən, xoşbəxt günlərimin izləri var. Çox təşəkkür edirəm Zəngilan rayon polis şöbəsinin rəisi, Zəngilanın komendantı Bəkir Jabbarova. Bəkir müəllim mənə şərait yaratdı. Təhlükəsizliyimiz təmin olundu və mən ata yurduna gedə bildim. Məzarlığı ziyarət edəjəyimi əvvəldən düşünmüşdüm. Məzarlığı ziyarət etməsəydim, bunu özümə bağışlaya bilməzdim. Yol boyu gedə-gedə düşünürdüm, görəsən, doğmaların məzarlarını ziyarət edə biləjəyəmmi? 28 il idi atamın məzarını ziyarət edə bilməmişdim. Zəngilanın işğalı ilə bizim ziyarət hüququmuzu da əlimizdən almışdılar. Orda ata ojağına getdim, gördüklərimizi lentə aldıq. Qəbiristanlığa getdik. Nənəmin, babamın qəbirləri qəbiristanlığın girişindədi. Adları yazılmışdı baş daşında, ona görə tapmaq çətin olmadı. Amma atamın məzarını çox axtardım Tapa bilmirdim. Bir qohuma zəng etdim, yerini nişan verdi, tapdım. Ziyarət elədim, mənəvi təskinlik, rahatlıq tapdım. Sadəjə, bunu dedim: ata, mən gəldim Qəbir dağılmış vəziyyətdədi İndiyədək həmişə özümü günahkar sayırdım ki, atamı ziyarət edə bilmirəm. Elə bilirdim, günahkaram, atam küsüb məndən, injiyir ki, niyə onu ziyarət etmirəm. Əmimin də məzarını ziyarət etdim. Atamla doyunja danışmaq istəyirdim, olmadı. Vaxt yox idi. Öz-özümə dedim ki, bundan sonra artıq teztez gedəjəyəm, atamı ziyarət edəjəyəm. Qəbrin üstünü də düzəldəjəyik. Yaralarımızı sarıyajağıq. Hamımız. İşğal altında qalmış yurdlara dönənlərin hamısı. Danışa bilmirəm, yenə qəhər məni boğur

*“Ömrümün sonunadək Bəkir Jabbarova borcluyam. Mənə ata məzarını ziyarət etmək imkanı yaratdı”*

**Afət xanım özüylə Zəngilan torpağı gətirdiyini də dedi:**

- ”Zəngilan” deyə-deyə dünyasını dəyişmiş doğmalarım var. Onların məzarına səpəjəm bu torpağı, Vətən torpağına qovuşsun onlar da, rahatlıq tapsınlar.

**Afət Telmanqızı Zəngilanın komendantı, Zəngilan rayon polis şöbəsinin rəisi Bəkir Jabbarova bir daha təşəkkür etdi:**

- Bəkir müəllim, mənim 28 illik həsrətimə son qoydu. Mənə ata məzarını ziyarət etmək imkanı yaratdı. Ömrümün sonunadək ona borcluyam.

**Məlahət Rzayeva**



## Gəncədə kişi özünü binanın 5-ci mərtəbəsindən atıb

### İntiharın hansı səbəbdən baş verdiyi məlum deyil

**Gəncdə intihar hadisəsi baş verib. APA-nın yerli bürosunum məlumatına görə, hadisə şəhərin Fikrət Əmirov küçəsində qeydə alınıb.**

Şəhər sakini, 1967-ci il təvəllüdlü Qurbanov Alim Razim oğlu özünü yaşadığı binandan ataraq intihar edib. O, hadisə yerində dünyasını dəyişib.

Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub.

İntiharın hansı səbəbdən baş verdiyi məlum deyil.

*Faktla bağlı Gəncə şəhər Prokurorluğunda araşdırma aparılır.*

## Metroda mobil telefonla ödəniş nə vaxt olacaq?



**Metropolitendə mobil telefon və s. elektron vasitələrdən istifadə etməklə ödənişin tətbiqi istiqamətində işlər aparılır.**

Bunu Trend-ə açıqlamasında ”Bakı Metropoliteni” QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov deyib.

O qeyd edib ki, konkret olaraq hər hansısa sistemin və ya üsulun tətbiqindən söz açmaq erkəndir:

**”Bununla bağlı hər hansısa əsaslı bir addım atılacağı təqdirdə ictimaiyyət məlumatlandırılacaq”.**

# Ölkənin bütün sürücüləri narazıdır

Uzun müddət keçməsinə baxmayaraq, ölkəmizdə həllini tapmayan problemlərdən biri də məhz parklama sistemi ilə bağlıdır. Prezidentin 2018-ci il 6 iyul tarixli fərmanı ilə BNA-ya parklamaya nəzarət, idarəetmə və daxil olan vəsaitdən istifadə ilə bağlı qaydalar müəyyən etmək tapşırılıb.

Lakin illərdi ki, gün ərzində avtomobilləri park edən zaman həmin yerlərdə əraziyə nəzarət edən, sürücülərdən parklama üçün ödəniş tələb edən müəyyən şəxslərin dayandığının şahidi oluruq. Sözügedən ərazidə hərəkətə nəzarət edən bu şəxslərin kimliyi təbii ki, sual doğurur. Ötən gün isə yol polisləri tərəfindən paytaxtın müxtəlif nöqtələrində dayanma-durma, parklanma qaydalarını pozan, eləcə də, ikinci cərgədə nəqliyyat vasitələrini saxlayan sürücülərin maarifləndirilməsi məqsədilə reydlər təşkil edilib. Polis əməkdaşları tərəfindən həmin sürücülər, həmçinin dayanma-durma qaydalarını kobud şəkildə pozan digər nəqliyyat vasitələrinin sahibləri barəsində inzibati protokollar tərtib olunub və dayanacaqların boşaldılması təmin edilib.

*“Azərbaycanda qanuni parklama sistemi yoxdur. Amma qanunsuz parklanma ilə bağlı cərimə sistemi qurulub və aktivdir”*

**Mövzu ilə bağlı ”Şərq”ə danışan Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, Azərbaycanda qanuni parklama sistemi yoxdur. Amma qanunsuz parklanma ilə bağlı cərimə sistemi qurulub və aktivdir:** ”Qısa bir araşdırma ilə müəyyən etmək olur ki, nəinki inkişaf etmiş ölkələrdə, elə MDB məkanına daxil olan ölkələrin əksərində, böyük şəhərlərdə parklama ilə bağlı məsələlər çoxdan həllini tapıb. Bu ölkələrin əksəriyyəti, nəinki böyük parklama ərazilərini, hətta küçələrdə, evlərin və müxtəlif inzibati binaların ətrafında olan parklama yerlərini vahid bir informasiya sistemində birləşdiriblər, pullu və pulsuz olanları fərqləndiriblər. Məlumatlandırma və monitorinq sistemləri qurublar. Bizdə vəziyyət necədir? Maraqlıdır ki, uzun müddət keçməsinə baxmayaraq ölkəmizdə həllini tapmayan problemlərdən biri də məhz parklama sistemi ilə bağlıdır. Prezidentin 2018-ci il 6 iyul tarixli fərmanı ilə BNA- ya parklamaya nəzarət, idarəetmə və daxil olan vəsaitdən istifadə ilə bağlı qaydalar müəyyən etmək tapşırılıb. Ötən müddət ərzində Bakı şəhərində bir xeyli ”parkovka” yerləri müəyyən edilib. Lakin vahid bir sistem ortada yoxdur”.



“Elə yerlər var ki, səhər kim tez yuxudan dursa, “parkovka”nın idarəedicisi o hesab olunur”

**O.Gündüz vurğulayıb ki, qəribə də olsa, indiyədək əksər ”parkovka” yerlərindən yığılan pulların BNA-ya aidiyyəti yoxdur:** ”Ümumiyyətlə, BNA bildirir ki, parklamadan yığılan pullar tam olaraq qanunsuzdur. Bütün səlahiyyətlər, yığılan vəsaitlər hansısa bir X şirkətinin kontrolundadır. Səbəb də ondan ibarətdir ki, hökumət saat hesabı parklama tariflərini 4 ildir ki, müəyyən edə bilmir. BNA rəsmisi dəfələrlə bildirib ki, Prezident fərmanının icrası ilə bağlı, parklanma yerləri üçün qanuni prosedurların və tariflərin müəyyən olunması üçün Nazirlər Kabinetinə müraciət edilib.

Hökumət isə göründüyü kimi uzun müddətdir ki, bu problemi həll etmək istəmir. Elə yerlər var ki, səhər kim tez yuxudan dursa, ”parkovka”nın idarəedicisi o hesab olunur. Bəzən müşahidə etmək olar ki, kimsə dövlətə məxsus olan parklanma ərazisinə şlaqbaum yerləşdirir”.

Ekspert diqqətə çatdırıb ki, bütün parklanma yerlərini vahid bir sistemdə birləşdirmək, vahid tariflər müəyyən etmək, bununla bağlı bir mobil tətbiq hazırlamaq və normal bir ödəniş sistemi qurmaq zamanı çoxdan çatıb. Ümid edək ki, cari ildə nəhayət ki, bu problem də öz həllini tapacaq.

**Aynurə Pənahqızı**

# Böhran son həddə yaxınlaşır

*Ermənistanda insan haqları pozulur, beynəlxalq təşkilatlar da səsini çıxartdı*



"Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatı Ermənistanla bağlı 2020?2021-ci illər üzrə məruzəsini təqdim edərkən onlar haqqında heç də yaxşı fikir bildirməyib... Məruzədə qeyd edilir ki, ölkədə koronavirus pandemiyasına görə tətbiq olunmuş fövqəladə vəziyyət rejimi fikir ifadəsi və sərbəst toplaşma azadlığını məhdudlaşdırıb.

Ermənistanın ikinci Qarabağ müharibəsində məğlubiyyəti ölkədə siyasi həyəcanlara və baş nazirin istefası çağırışlarına gətirib çıxarıb, siyasi böhrana səbəb olub. Noyabrın 12-də baş verən qarışıqlıqlarda iştiraka görə 12 müxalifətçi həbs edilib. Qarışıqlıqlar zamanı baş nazirin iqamətgahı dağıdılıb, parlamentin spikeri qəzəbli kütlə tərəfindən amansızcasına döyüldükdən sonra xəstəxanaya yerləşdirilib.

Qeyd edilir ki, ölkədə hakimiyyət tərəfindən söz verilmiş məhkəmə və anti-korrupsiya islahatları dayandırılıb. Bu isə bir sıra fəsadlara yol açıb.

İslahatların gedişinə, həmçinin, Qarabağ münaqişəsi və pandemiya da təsir edib. Konflikt, pandemiya iqtisadiyyata və səhiyyə sisteminə dağıdıcı təsir göstərib.

Xəstəxanalar və ümumilikdə səhiyyə sektoru yüklənib. Onlar pandemiya və hərbi əməliyyatlar zamanı pasiyentlərin, yaralı hərbçilərin artan sayının öhdəsindən çətinliklə gəlib.

Məruzədə Ermənistanın ikinci Qarabağ müharibəsi zamanı beynəlxalq humanitar hüquqla qadağan edilmiş kasetli bombalardan istifadəsi, mülki insanların yaşadığı Bərdə şəhərinin atəşə tutulması qeyd edilib.

Fövqəladə vəziyyət rejimi çərçivəsində 20-dən çox insanın toplaşması və pandemiya haqqında "qeyri-rəsmi informasiya"nın yayılması qadağan olunub. Hakimiyyət 20 nəşrə " əhali arasında çaxnaşmanın yayılmasına töhfə" verdikləri məlumatları düzəltməyə və ya silməyə məcbur edib. Yerli və beynəlxalq insan haqları təşkilatlarının sərt tənqidlərindən sonra media məhdudiyyətləri aradan qaldırılıb.

**Məsələ ilə bağlı politoloq Məhəmməd Əsədullazadə öz fikirlərini "Şərq"ə bildirib:** "Ermənistanda hazırda siyasi böhran davam edir. Hakimiyyət opponentlərinə qarşı siyasi təqib və həbs həyata keçirir. Qeyd edim ki, beynəlxalq insan hüquqları təşkilatları daima Azərbaycana qarşı bu tipdə tənqidi bəyanatlar qəbul edirdi. Amma Ermənistana müəyyən qədər loyallıq göstərirdilər. Hazırda isə bu ölkədə həbslər, Paşinyanın mətbuata qarşı təzyiqləri, seçki öncəsi ölkədə mətbuata qarşı total hücumlar geniş vüsət alıb. Məhz seçkilər yaxınlaşdıqca bu təzyiqlərin artması mümkündür.

Nikol Paşinyan qərbin adamı kimi Ermənistanda demokratiyanı bərqərar edəcəyinə söz vermişdi. Amma biz bunun tərsini görürük. Ona görə də belə bir yanaşma artıq beynəlxalq təşkilatların öz hesabatında da əksini tapır. Ermənistanda demokratiya yox, onun dəyərlərinə qarşı məhz demokrat lider mübarizə aparır. Ona görə də sərt təpki ilə üzləşir. Belə davam edəcəksə, Ermənistan regionda ən pis demokratik ölkə statusunu alacaq".

**Ağarza Elçinoğlu**

## Baş nazirə qarşı şübhələr var

"Yəqin ki, Putin Ermənistandakı digər siyasətçilərə dəstək verəcək"



**Moskvada Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş baş tutub. Tərəflər bir çox məsələləri müzakirə ediblər. Paşinyanın Putinin onun atasının adını səhv deyərkən reaksiya göstərməməsi isə çox şeydən xəbər verir. Kifayət qədər çox şeydən...**

Qərbə meyl edən Ermənistan baş nazirinin Rusiya silahları barədə dedikləri, bəlkə də onun öz "ölüm fərmanına" qol çəkməsi imiş. Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu sözügedən görüşün nəticələri barədə qənaətini "Şərq "lə bölüşdü: "10-15 günə daha dəqiq fikir bildirmək olar. Lakin Koçaryanla Putin arasındakı danışıq təsadüfi deyildi. Həmçinin Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov təxminən iki həftə əvvəl Koçaryan haqqında sadəcə adi siyasətçi kimi danışmışdı.

Amma son çıxışında onu, necə deyərlər, yerə-göyə sığdıra bilmədi. Görünür, Putin Paşinyana artıq inanmır.

Onda Ermənistan baş nazirinə qarşı şübhə yaranıb. Əgər yaxın günlər ərzində Paşinyan öz siyasətini Kremlin istədiyi kimi qurmasa, yəqin ki, Putin Ermənistandakı digər siyasətçilərə dəstək verəcək".

**Kənan Novruzov**

## Şəhid xəbəri Trabzonu sarsıtdı

Pilotun atası: "Tarlada çalışırdım, ürəyim sıxıldı, ağrı hiss etdim"




**Konyada təlim uçuşu zamanı qəzaya uğramış "Türk ulduzları"na məxsus NF-5 təyyarəsinin pilotu yüzbaşı Burak Gençcelepin şəhidlik xəbəri Trabzondakı ata ocağına çatıb.**

Pilotun Trabzon Ortahisar məhəlləsindəki ata ocağına gələn hərbi və mülki yetkililər ailəyə Burakın şəhid olduğu xəbərini veriblər. 35 yaşlı Şəhid Burak Gençcelep evli idi, iki övladı var. Şəhidin yaşadığı ev və evin yerləşdiyi küçə türk bayraqları ilə bəzədilib. Şəhidin ailəsinin yaxınları və məhəllə sakinləri evin önünə toplaşıb. Şəhidin atası Mehmet Gençcelep, qardaşı ilə tarlada çalışıb evə dönərkən Burakın şəhid olduğu xəbərini alıblar. Şəhidin əmisi deyib ki, böyük qardaşı - Burakın atası tarlada çalışarkən köksündə bir ağrı hiss edib. Evə yetişdikdə isə oğlunun şəhid olduğunu öyrənib. Şəhidin atası cənazə üçün Konyaya gedib. Şəhid atası oğlunun bu ilin martında "18 mart şəhidlərini anma günü və Çanaqqala Dəniz Zəfərinin 106-cı ildönümü" münasibətilə Gelibolu yarımadasında Şəhidlər Abidəsi önündə çəkdirdiyi fotosunu sosial mediada paylaşaraq altından "Oğlum, bu günə qədər mənim qürurum idin, indi Trabzonun qürurusan!" yazıb.

**Məlahət**

# ABŞ daha da aqressivləşir

Rus diplomatlarının ölkədən çıxarılması təsadüfi deyil

Ağ Ev administrasiyası seçkilərə müdaxilə və "Solar Vinds" proqramı vasitəsilə dövlət qurumlarına edilən kiberhücumlarla bağlı araşdırmanı başa çatdırıb.



ABŞ Prezidenti Co Baydenin administrasiyası "düşmən hərəkətlərə cavab olaraq" Rusiya diplomatlarının ölkədən çıxarılması və yeni sanksiyaların tətbiq edilməsi imkanlarını nəzərdən keçirir. Bu barədə "Bloomberg" ABŞ-ın adının açıqlanmasını istəməyən səlahiyyətli şəxslərindən birinə istinadla məlumat yayıb. Xəbərə görə, Ağ Ev administrasiyası Rusiyanın yol verdiyi "qanunsuzluqlar", o cümlədən, seçkilərə müdaxilə və "Solar Winds" proqramı vasitəsilə dövlət qurumlarına edilən kiberhücumlarla bağlı araşdırmanı başa çatdırıb.

Mənbənin verdiyi məlumata görə, buna cavab olaraq Rusiya Federasiyasının ayrı-ayrı fərdlərinə və təşkilatlarına qarşı yeni sanksiyaların tətbiq olunması, Vaşinqtonda "diplomat" adı altında fəaliyyət göstərən Rusiya kəşfiyyat zabitlərinin ABŞ-dan qovulması kimi radikal addımlar atıla bilər.

Mənbə onu da bildirib ki, sanksiyalar böyük ehtimalla, Rusiya Prezidenti Vladimir Putinə yaxın insanlar, həmçinin, seçkilərə müdaxilədə iştirak etmiş qurumlara şamil olunacaq.

Qeyd edək ki, aprelin 7-də Ağ Evin mətbuat katibi Cen Psaki ABŞ-ın bir neçə gün ərzində Rusiyanın kiber hücumlara müdaxilə və başqa hərəkətlərinə cavab veriləcəyini bəyan etmişdi.

**Politoloq Turab Rzayev "Şərq"ə olan açıqlamasında bildirib ki, Amerikanın Rusiyaya qarşı mövqeyi hələ Baydenin prezident seçkiləri zamanından bəlli idi:** "Prezident seçkilərindən sonra da ABŞ bəyan etdi ki, onlar artıq Rusiyanın nazı ilə oynamaq fikrində deyil.

Biz bilirik ki, Putin dövlət əlaqələrindən əlavə özünə olan hörməti çox dəyərləndirir. Bu mənada, Amerika Prezidenti Baydenin Putini qatil adlandırması onun Rusiya ilə heç bir şəkildə razılaşmaq istəmədiyi anlamına gəlir.

Əvvəlcə İtaliyada rus casusu tutuldu, indi də ABŞ bu barədə düşünür. Bir ara hər NATO üzvü ölkədə rus diplomatlarının sayını azaltmışdı. Düşünürəm ki, bu proses bütün Avropa üzərindən davam edəcək.

Biz bundan sonra da Amerika tərəfdən bu cür aqressiv addımların şahidi olacağıq. Regionda və dünyada çox təhlükəli bir dövrə qədəm qoyuruq. Bu proseslər xırda, adi iqtisadi sanksiyalar kimi qiymətləndirilməli deyil".

**Ağarza Elçinoğlu**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# “Ortaq media platformasının yaradılması indiki dövrdə çox mühümdür”

*Türkiyəli jurnalist: ”Azərbaycan və Türkiyə media mənsubları ideal xəbərçilik nümunəsi göstərməlidirlər”*

Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən medianın əsas prinsipləri obyektivlik, qərəzsizlik, vətənpərvərlik olmalıdır. Bu üç amilin vəhdətliyi fonunda daha dolğun, ölkənin bu günü və gələcəyi üçün daha önəmli məsələlərin müzakirəsinə və həllinə xidmət edən yazılar ortaya çıxar. Müasir dövrdə kütləvi informasiya vasitələri cəmiyyətin kamilləşməsində, maariflənməsində, ictimai rəyin formalaşmasında misilsiz rol oynayır və bu vəzifələri çox müxtəlif üsullarla gerçəkləşdirir.



Media cəmiyyətin aynası olmaqla yanaşı, həm də onun maariflənidirilməsi işində yaxından iştirak edən bir sahədir. Çünki jurnalistika fərdləri deyil, kütləni, cəmiyyəti kamilliyə çağırır. Yaranışından sözü sərbəst, azad ifadə etmək hüququ uğrunda hakim dairələrlə ölüm-dirim mübarizəsinə girən jurnalistika, əslində cəmiyyəti, onun üzvlərini, onu idarə edənləri kamil görmək arzusunun gerçəkləşməsini istəyir. Əlbəttə, eyni arzu, eyni istək, bütövlükdə sənətin, xüsusilə bədii sənətin mahiyyətinə də daxildir. Bədii söz sənətinin böyük karifeyləri cəmiyyətin kamilləşməsi yolunda min bir zillət çəkib.

Jurnalistikanın, kütləvi informasiya vasitələrinin cəmiyyətə təsiri çox güclüdür və geniş radiusu təşkil edir. Belə bir möhtəşəm gücə malik ictimai, kütləvi institut ictimai həyatın kamilləşməsi üçün öz üzərinə öhdəliklər götürür. Bu öhdəliklərdən biri və başlıcası onun nöqsanlarını aşkar etmək və göstərmək işi ilə bağlıdır. Jurnalistikanın ”dördüncü hakimiyyət” rolunda çıxış etməsi bu vəzifədən irəli gəlir.

Media cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Onların fəaliyyəti cəmiyyətdə baş verən reallıqlara münasibət formalaşdırır, ictimai-siyasi təsir göstərir. KİV təkcə informasiya ilə kifayətlənmir, o həm də yeniliklərə şərh verir, ayrı-ayrı ideyaları, təlimləri, siyasi proqramları təbliğ və təşviq edir. Media insanlarda ictimai fikirlər, inam və sosial fəallıq formalaşdırmaqla, onları müəyyən fəaliyyətə istiqamətləndirir.

Hər nə qədər ictimaiyyətin bir kəsimi hazırkı reallıqda Azərbaycan mediasının cəmiyyətə təsir imkanının olmamasını iddia etsə də, media nümayəndələrinin əksəriyyəti onların bu fikirləri ilə qəti şəkildə razılaşmırlar. Ekspertlər hesab edir ki, media bu gün də cəmiyyəti öz arxasınca aparmağı bacarır. Yəni ”medianın təsir imkanları yoxdur” kimi fikirlər absurddur. Peşəkarlara görə, mətbuatın cəmiyyətdə baş verən proseslərə ciddi təsiri var. Media gündəm yaradır və müxtəlif problemlərin həllinə nail olur. KİV-lərin maarifləndirici funksiyası bir xeyli axsasa da, medianın güclü silah olduğunu etiraf edirlər. Hesab edirlər ki, hətta ən zəif halda belə cəmiyyəti informasiya ilə təmin etmək, yönəltmək imkanına malikdir.

Bəzi nəzəriyyəçilərin fikrincə, media insanın ən yaxın dostudur. Çünki ən çıxılmaz, çətin durumlarda köməyə gəlir və reallıqları olduğu kimi təqdim edərək, soyuqqanlı düşünməyə, mövcud vəziyyəti təhlil etməyə yardım edir. Vətən müharibəsi dövründə də belə oldu. Düşmən yaydığı dezinformasiyalarla, törədilən təxribatlarla ictimai rəyimizdə nə qədər çaşqınlıq yaratmağa çalışsa da, bunu bacarmadı. Çünki əsgərlərimiz kimi jurnalistlərimiz də ”sinələrini sipər etdilər” və hücumların qarşısını aldılar. Bu işdə qardaş Türkiyənin media işçiləri də bizə dəstək verdilər. Məhz onların da fədakarlığı nəticəsində jurnalistikamız öz vəzifəsini layiqincə yerinə yetirə bildi. Beləliklə, medianın cəmiyyət həyatındakı rolu növbəti dəfə təsdiqləndi. ***”Şərq” olaraq türkiyəli jurnalist Adnan Fişenklə də elə bu haqda, jurnalistikanın müasir cəmiyyətdəki yeri və rolu barədə söhbətləşdik.***

**- Azərbaycandakı hadisələri haradan izləyirdiniz?**

- Vaxt tapdıqca Azərbaycan və Türkiyə mediasını oxuyurdum.

**- 44 günlük savaş dövründə iki qardaş ölkənin media nümayəndələrinin birgə fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Jurnalistlərimiz çox yaxşı çalışdılar. Onlar yalnız Azərbaycan və Türkiyə ictimaiyyətini deyil, bütün dünyanı obyektiv, operativ informasiya ilə təmin etdilər. Həmçinin işğal altındakı torpaqlardakı vəziyyət, törədilən vəhşiliklər dünya ölkələrinin diqqətinə çatdırıldı. Beləliklə, həm də ermənilərin təbliğatının, xəbər təxribatlarının qarşısı alındı. Nəticədə kimlərsə, hətta bunu istəməsə də, obyektiv reallığı qəbul etməli, ədalətin bərpası ilə barışmalı oldu. Müharibə dövründə düşmən mülki əhalini hədəfə aldı. Ermənilər qovulduqları yerlərdə də vandallıqlar törətdilər, evləri dağıtdılar, ağacları yandırdılar. Həmçinin hərbi cinayət törədərək Azərbaycanın savaş getməyən ərazilərinə raket atdılar. Və məhz jurnalistlərin fədakarlığı nəticəsində ermənilər dünyanın gözü qarşısında bir daha ifşa olundular. Beləliklə, azad dünya üçün informasiya təminatının nə qədər vacib olduğu növbəti dəfə təsdiqləndi.

**- Gələcəkdə Türkiyə-Azərbaycan ortaq media quruluşunun yaradılması barədə nə düşünürsünüz?**

- Əvvəllər təməli qismən qoyulmuş ortaq media platformasının yaradılması indiki dövrdə çox mühümdür. Odur ki, gecikmək olmaz. Qarabağ müharibəsi sayəsində əməkdaşlığımızı bir az da möhkəmləndirdik. Bundan sonra daha ciddi addımların atılacağına inanıram.

**- Media sahəsində başqa hansı ortaq addımlar atmaq olar?**

- Əlbəttə, bilik, təcrübə, texnologiya mübadiləsi aparılmalıdır. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi vəhdətdə öyrənilməli, müxtəlif seminarlar, ”dəyirmi masa”lar təşkil edilməlidir.

Rusiya, Çin, ABŞ kimi bir çox ölkələrin medianı idarə edərək haqsız olduqları halda ictimai rəyə müsbət təsir edə bildikləri vaxtda Azərbaycan və Türkiyə media mənsubları ideal xəbərçilik nümunəsi göstərməlidirlər. Bunun üçün isə dediyim kimi, təcrübə mübadiləsi şərtdir. Ən vacib məsələlərdən biri də dövlətin təməl daşlarından olan KİV-in iqtisadi sıxıntılardan azad olmasıdır. Jurnalistlər işsiz qalacaqları qorxusundan azad olmalıdırlar. Əksinə, onlardan daha səmərəli necə istifadə etmək olar barədə düşünülməlidir. Məsələn, bu və ya digər fiziki qabiliyyətlərini itirən, tutalım, qəzaya düşən jurnalistin nələr edə bilməsi ətrafında fikirləşmək və bu istiqamətdə ciddi addımlar atmaq lazımdır.

**- Müharibə kimi fors-major hadisələr zamanı xəbərçilik, yoxsa vətəndaşlıq əsas götürülməlidir?**

- İctimaiyyət üçün çalışan jurnalist xəbər alma, fikir bildirmə, tənqid etmə azadlığından istifadə edərkən özü üçün nəticəsinin nə olduğundan asılı olmayaraq həqiqətləri olduğu kimi deməlidir. Jurnalistika professional edildikdə peşəyə, həvəskar formada yerinə yetirildikdə fəaliyyətə çevrilir. Jurnalist media azadlığını xalqın doğru xəbər alması üçün istifadə etməlidir. Və bunun üçün yeri gələndə hər cür senzura ilə mübarizə aparmalıdır. Jurnalist hər şeydən əvvəl ictimaiyyət və həqiqət qarşısında məsuliyyət daşıyır. Bu, ictimai qaydalardan və rəhbərlik qarşısındakı məsuliyyətdən də öndədir. Media adamı, həmçinin çatdırdığı xəbərin məsuliyyətini daşıyır. Bizim azadlığımızın sərhədlərini məsuliyyətimiz və peşə prinsiplərimiz müəyyənləşdirir.

**- Xəbərçilik, ictimai şüura təsir etmək baxımından sosial medianın rolunu necə dəyərləndirirsiniz?**

- İnkişaf etmiş ölkələrdəki insanların, demək olar, hamısı bu gün sosial medianı qəbul ediblər. Hətta fəal istifadəçiyə çevriliblər. Bəli, bu platformalar düzgün istifadə edilmədiyi təqdirdə insanlara maddi və mənəvi ziyan vura bilər. Hazırda sosial media hansısa KİV-də çalışmadan fərdi və ya kollektiv formada jurnalistika ilə məşğul olma imkanı yaradır. Bir çoxları saytlar və bloqlar yaradaraq, heç kimdən asılı olmadan jurnalistlik edirlər. Amma onların sayı professional media qurumlarında çalışan jurnalistlərə nisbətən çox azdır. Ümumiyyətlə, media KİV-dən istifadə edərək auditoriyaya çatmaq deməkdir. KİV dedikdə qəzet, jurnal, televiziya, radio, film, internet və s. nəzərdə tutulur. Məhz bunların vasitəsilə fikirlər çox qısa müddətdə ictimaiyyətə çatdırılır. Odur ki, medianın cəmiyyət həyatındakı rolu çox böyükdür. Onun cəmiyyət daxilindəki münasibətləri tənzimləyən bir gücü var. Sosial media isə zaman və məkan məhdudlaşması olmadan fikir mübadiləsi aparıla bilən platformalardır. Deməli, sosial media ən azından günümüzün tələbidir.

**- Jurnalistikanın gələcəyi barədə nə düşünürsünüz?**

- Tarix boyu ünsiyyət müxtəlif formalarda olub. Məsələn, qədim dövrdə insanlar dumanla, göyərçinlə, sonralar çaparlarla əlaqə saxlayıblar. Ardınca isə müxtəlif texnoloji yeniliklər meydana çıxıb. Beləliklə, qəzet meydana gəlib, formalaşıb. Müasir dünyada mətbuat vasitəsilə verilən informasiya insanlara öz həyat tərzlərini müəyyənləşdirməyə kömək edir. Eyni zamanda KİV insanları yönləndirən, onlara təsir edə bilən bir vasitəyə çevrilib. Medianın şüura çox ciddi təsiri var. O həm də informasiya təminatını həyata keçirir. Odur ki, insan həyatında mətbuatın çox mühüm yeri var. Deməli, dünyanın medianın yaydığı informasiyadan təsirləndiyi və təsirlənəcəyi mübahisəsiz məsələdir. Bu, xüsusilə inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələr üçün xarakterikdir. Söylədiyim kimi, medianın ictimaiyyətə təsiri gələcəkdə də davam edəcək. Jurnalistika insanların yaranması ilə formalaşdığı kimi, yalnız insanlığın sonu çatanda yox olacaq bir peşədir.

"Dövlətin təməl daşlarından olan KİV-in iqtisadi sıxıntılardan azad olmalıdır. Jurnalistlər işsiz qalacaqları qorxusundan azad olmalıdırlar. Əksinə, onlardan daha səmərəli necə istifadə etmək olar barədə düşünülməlidir"

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Kənan Novruzov**

# "TƏBİB-də, nazirlik də ləğv edilsin"

*Əhalini səhiyyə talançılığı və xaosdan xilas etmək mümkündür*




Azərbaycanda tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrini TƏBİB aparacaq.

Bu, Milli Məclisdə müzakirəyə çıxarılacaq "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna təklif edilən dəyişikliklədə əksini tapıb.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) - TƏBİB tərəfindən aparılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) - TƏBİB-in həmin reyestrə çıxışı təmin ediləcək. Əvvəllər bu səlahiyyət Səhiyyə Nazirliyində idi.

**Yeni qərarı "Şərq"ə şərh edən həkim-stomatoloq, "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirib ki, əhalinin sağlamlığı kimi məsələ ilə bir struktur vahidi məşğul olmalıdır. Həkimin fikrincə, icbari tibbi dövlət sığortasını həyata keçirmək üçün əlahiddə bir struktura ehtiyac yox idi:** "Səhiyyə Nazirliyinin bazasında bir agentliyin yaradılması ilə bu problem həllini daha rahat tapa bilərdi. Təəssüf ki, Azərbaycanda əhaliyə birbaşa faydalı olan işlər hər zaman "daşa ilişir".

Bunun kökü çox dərindir və daha çox siyasi təməldədir. Mənə qalsa, hər iki struktur ləğv edilər və köhnə nazirlik bazasında daha səmərəli, çevik, bürokratiyanın minimuma endirildiyi xidmət mühiti yaratmaqla əhalini səhiyyə talançılığı və xaosdan xilas etmək mümkün olar.

Əks halda mövcud strukturlar arasında maddi maraqlar və sırf konyukturaya hesablanan anormal təfəkkür savaşı əhalinin sağlıq durumunu daha da pis vəziyyətə salacaq".

**Yeganə Bayramova**



## AZTV-nin rejissoru vəfat etdi

**Əməkdar incəsənət xadimi, Azərbaycan Televiziyasının rejissoru Məhərrəm Bədirzadə vəfat edib.**

Tanınmış rejissor bu gün 76 yaşında dünyasını dəyişib.

Məhərrəm Əlisəftər oğlu Bədirzadə 13 yanvar 1945-ci ildə Bakıda doğulub.

Mirzəağa Əliyev adına İncəsənət İnstitutunun rejissorluq fakültəsini bitirib.

M. Bədirzadə 1969-cu ildən Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.

Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışıb.



# Suçlu axtaran yoxdur

*Təhqirlər artıq qanla yuyulur*

Sosial şəbəkədə mübahisə qətlə səbəb olub. 20 dekabr 2020-ci il tarixində Musayev Fərid Mehdi oğlunun bıçaqlanaraq qəsdən öldürülməsi faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə İsmayıllı rayon prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb.

Məsimli Səxavət Sübhan oğlu sosial şəbəkədə aralarında baş vermiş mübahisə ilə əlaqədar 20 dekabr 2020-ci il tarixdə, saat 17 radələrində rayon ərazisində yerləşən parkda Fərid Musayevlə görüşüb. Hadisə zamanı heç bir əsaslı səbəb olmadan S.Məsimli F.Musayevin ürək nahiyəsinə bıçaqla xəsarət yetirib.

S.Məsimli Cinayət Məcəlləsinin 120.2.2 (xuliqanlıq niyyətilə qəsdən adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Sosial şəbəkədə müxtəlif mövzular ətrafında fikir mübadiləsi zamanı teztez mübahisələrin yaşanması günümüzün reallıqlarından biridir. Bəzən istifadəçilərin qarşılıqlı təhqirə əl atdığı da danılmazdır. Bununla bağlı qanunvericilikdə müvafiq maddələr nəzərdə tutulsa da, insanlar hüquqi yolu deyil, əlbəyaxa davanı və şiddəti üstün tutur.

**Belə hallara çox rast gəlindiyini deyən sosioloq Lalə Mehralı "Şərq"ə bildirib ki, xüsusilə feysbuk sosial şəbəkəsi ölkəmizdə yeni məşhurlaşan zaman cəmiyyətdə dini və ateizm kəsim arasında mübahisələr olurdu:** "Sonralar isə müxalif və iqtidaryönlü insanların çoxsaylı mübahisələri baş verdi. Dövrümüzdə daha çox cinsi arientasiyasına görə təzyiqə məruz qalan insanlarla sıradan insanlar arasında fikir ayrılığı olur.

Ümumiyyətlə, insanlar onlayn platformada paylaşılan hər bir məlumatı son dərəcə ciddi qəbul edirlər. Lakin sosial şəbəkələr, sadəcə, müzakirə platformasıdır. Oraya müzakirəyə çıxarılan hər şey ciddi qəbul edilməməlidir. Mövzu müzakirə edilə, tənqidə ehtiyacı varsa, tənqid oluna bilər.

Hətta mübahisələrin də baş verməsi mümkündür. Amma heç bir halda təhqir və kiminsə şəxsiyyətinin alçaldılmasına yol verilməməlidir. Bu səbəbdən də insanların özündə məsuliyyət olmalıdır.

> Sosial şəbəkələrdəki mübahisələr üzbəüz "razborkalara" qədər uzanır

İnsan özünə yaraşdırmadığı sözləri başqasının ünvanına söyləməməlidir. Düzdür, virtual aləmdə şərəf və ləyaqətin alçaldılmasına görə qanunlarımız cəza tətbiq edir. Amma gəlin görək iki tərəf bir-birini təhqir edəndə onların hansı məhkəməyə müraciət edir? Heç biri... Hər ikisi məsələni özləri həll etmək istəyirlər. İnsanları yönəltmək lazımdır ki, belə hadisələrdə qanunverici orqanlara şikayət etsinlər. Normal və insani yollarla məsələni sonlandırmaq lazımdır. Bir-birinə qarşı təhqirə keçib, sonra virtual mübahisəni real davaya çevirmək normal deyil".

**Yeganə Bayramova**

# Operativ reaksiya lazımdır

*"112 zəng xidməti"nin mobil versiyası gərək çoxdan hazır olaydı*

"Fövqəladə Hallar Nazirliyi uzun illərdir ki, bir mobil tətbiq hazırlaya bilməyib. Bir müddət öncə polisin "102 zəng xidməti"nin mobil versiyasının hazırlanmasının vacibliyindən yazmışdım. Hələlik DİN buna reaksiya verməyib".



Bunları "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

Məsələ barədə daha ətraflı "Şərq"ə danışan O.Gündüz çatışmazlığı açıqladı: "Ümumiyyətlə, ölkədə fərqli növ fövqəladə hallar zamanı kömək əldə etmək üçün müxtəlif dövlət qurumlarına məxsus çoxsaylı qısa nömrələr üzrə zəng xidmətləri mövcuddur: 101 (Yanğınsöndürmə), 102 (Polis), 103 (Təcili yardım), 104 (Qaz qəza xidməti), 108 ("Asan" xidmət), 113 (Təcili yardım), 112 (Fövqəladə hallar) və s. Fövqəladə Hallar Nazirliyinin "Qaynar xətt" xidməti - "112 zəng xidməti"dir. Bu xidmətə ölkə ərazisindən şəhərdaxili və mobil telefonlarla, bütün növ taksofonlarla pulsuz zəng etmək olar. Yanğın, müxtəlif qəzalar, ağır yol-qəza, xilasetmə, köməksiz vəziyyətdə qaldıqda və s. hallarda bu xidmətdən kömək istənilir.

Amma yalnız zəng etmək olar. Adətən "112" qaynar xətt"inə zəng edən şəxs hadisə barədə ətraflı məlumat, məsələn, ünvan, hadisənin xarakteri və s. verməli, operatorun suallarını cavablandırmağa çalışmalıdır.

Bu isə uzun zaman alır. Məlumat verən və qəbul edən, həmçinin icraçılar üçün problemlər yaradır. Maraqlı və təəccüblüdür ki, illər öncə hazırlanması üzərində işlər aparıldığı bildirilsə də, bu xidmətin də mobil versiyası yoxdur.

Bildiyim qədər FHN bir neçə dəfə belə bir mobil xidmətin hazırlanacağı haqqında məlumat vermişdi. Geniş resurslara və İT imkanlarına malik olan bu dövlət qurumunun indiyədək belə bir mobil rəqəmsal həllin hazırlanmasına diqqət yetirməməsi qüsurlu yanaşmadır".

Ekspert, həmçinin çıxış yolunu da göstərdi: "112 zəng xidməti" bütün Avropa ölkələrində fövqəladə hallarda yardım üçün qəbul edilmiş vahid nömrədir. Məsələn, bu, ABŞ-da 911 xidmətidir.

Bu baxımdan da, bəlkə də, elə ilk növbədə "112 zəng xidməti"nin mobil versiyası gərək çoxdan ölkəmizdə hazır olaydı. Mobil versiya daha operativ reaksiya, məlumatın qəbulu və emalı, məlumatın multimedia formada ötürülməsi, əks əlaqə, koordinatın müəyyən edilməsi və yönləndirilməsi, hadisə haqqında daha yetərli məlumatlar almaq üçün indiki zamanda ən effektiv və səmərəli həll yoludur.

Eyni zamanda, düşünürəm ki, ölkədə müxtəlif hallarda operativ kömək üçün, bütün növ təcili zəng nömrələri üzrə koordinasiya işlərinin aparılması, vahid bir nömrə xidmətinin qəbul edilməsi və bu nömrədən koordinasiyanın aparılması da doğru olardı. Əlbəttə, qısa nömrələrin texniki təminatını telekommunikasiya operatorları həyata keçirir. Bu baxımdan fikrimcə, ölkədə elektron hökumət quruculuğu sahəsində koordinasiyaya cavabdeh olan VXSİ Dövlət Agentliyi yanında Elektron Hökumətin İnkişafı Mərkəzi əlaqədar dövlət qurumları ilə birgə bu məsələlərin həllinə ciddi diqqət yetirməlidir".

**Kənan Novruzov**

# Ölkəyə quş ətinin gətirilməsinə məhdudiyyətlər qoyulub



*O məhsullar üçüncü ölkə vasitəsilə bizim ərazimizə daxil olub*

İki bölgədən Azərbaycana quş ətinin gətirilməsinə məhdudiyyət qoyulub.

AQTA-dan verilən məlumata görə, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatını tərəfindən Estoniya Respublikasının Haryumaa (Harju) və Küveyt Dövlətinin Əl Ahmədi (Al Ahmadi) inzibati ərazi vahidlərində yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədi ilə OIE-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən zonalaşma prinsipi nəzərə alınmaqla, Estoniya Respublikasının Haryumaa və Küveyt Dövlətinin Əl Ahmədi inzibati ərazi vahidlərindən bütün növ diri quş və quşçuluq məhsullarının idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub.

"Yerli bazar və istehsalçıların qorunması üçün ölkəmizə idxal olunan quş əti məhsullarına böyük rüsumlar tətbiq etməyi təklif edirəm"

**Tətbiq olunan məhdudiyyətlə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bu tədbiri müsbət dəyərləndirir:** "Bu ölkələrdən Azərbaycana ümumiyyətlə quş əti idxal olunmur. Lakin ola bilər ki, üçüncü ölkə vasitəsilə həmin məhsullar bizim əraziyə daxil olsun. Hesab edirəm ki, AQTA bu məsələləri də nəzarətdə saxlayacaq. Belə bir tədbirin görülməsi çox yaxşıdır. Tövsiyə edirəm ki, biznes qurumları da həmin məsələdə son dərəcə ehtiyatlı olsunlar. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdəki broyler fabrikləri Azərbaycanı tamamilə quş əti ilə təmin etməyi bacarır. Buna görə də yerli bazar və istehsalçıların qorunması üçün ölkəmizə idxal olunan quş əti məhsullarına böyük rüsumlar tətbiq etməyi təklif edirəm. Hətta Azərbaycanda elə şirkətlər var ki, təzə toyuq ətini adi salafan torbalara bükərək satışa çıxarır. İnsanlar belə məhsullara üstünlük verməlidirlər. Baxmayaraq ki, onların etiketi yoxdur. Lakin bu məhsullar təzə olmaqla yanaşı bir o qədər də xeyirlidir. Düşünürəm ki, hökumət elə bir siyasət həyata keçirməlidir ki, yerli broyler şirkətləri inkişaf etsin".

**Aytac Ali**

## Xalq artisti evə buraxılıb



**Xalq artisti Bəsti Cəfərova xəstəxanadan evə buraxılıb.**

Bu barədə APA-ya Xalq artisti özü məlumat verib. O, səhhətinin tam qaydasına düşdüyünü, lakin ev şəraitində də 14 gün malicəsini davam etdirəcəyini deyib.

*Qeyd edək ki, Xalq artisti Bəsti Cəfərova martın 31-də koronavirus (COVID-19) diaqnozu ilə xəstəxanaya yerləşdirilib.*

## Koronavirusa yoluxan Aytən Səfərovanın vəziyyəti pisləşib



**Teleaparıcı Aytən Səfərova xəstəxanaya yerləşdirilib.**

Qafqazinfo xəbər verir ki, bir müddət əvvəl koronavirusa yoluxan aparıcı müalicəsini "Yeni klinika" tibb müəssisəsində davam etdirir.

Hərarəti 39 dərəcəyə qədər yüksələn aparıcının səhhətində irəliləyiş olmadığı üçün aprelin 5-də klinikaya yerləşdirilib.

*Qeyd edək ki, A. Səfərova bir müddət əvvəl "Instagram" hesabında paylaşım edərək koronavirusun müalicəsi üçün dərmanların baha olmasından şikayətlənmişdi.*

# Ölkədə ən çox fəhlələrin hüquqları pozulur



*Təklif olunur ki, Əmək Nazirliyi yaradılsın*

Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsi ərazisində yerləşən boya istehsalı fabriki olan "Rəmzi S" MMC-də bədbəxt hadisə baş verib. Fabrikdə fəhlə işləyən Usubov Adəm Famil oğlu dünyasını dəyişib.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. İlkin istintaqla müəyyən edilib ki, A.Usubov fabrikdə işləyən zaman torpaq yığınının üzərinə tökülməsi nəticəsində hadisə yerində ölüb. İş yerlərində fəhlə ölümləri çox sıx rastlaşdığımız hadisələrdən biridir. İşçilərin təhlükəsizliyinə əməl edən şirkətlərin sayı olduqca azdır. Ən pisi isə budur ki, bədbəxt hadisədən sonra qanunvericiliyə uyğun olaraq müvafiq cəzalandırma tədbirləri görülsə də, dəyişən bir şey yoxdur. Sahibkarlar yenə də öz bildiklərini edir, bir sözlə, insan həyatı bəziləri üçün "ucuz"dur.

**Baş verənləri "Şərq"ə dəyərləndirən hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirib ki, Əmək Məcəlləsinin 15-ci maddəsinə görə, bu məcəllənin idarə və müəssisələrdə yerinə yetirilməsinə nəzarəti Dövlət Əmək Müfəttişliyi edir:** "Məcəllənin 309-cu maddəsində yazılıb ki, idarə və müəssisələrdə Əmək Məcəlləsinin icra olunmasına ictimai nəzarəti reallaşdıran digər qurum Həmkarlar Təşkilatıdır. Lakin Əmək Müfəttişliyi və Həmkarlar Təşkilatı sanki "ölü"dür. Həmkarlar Təşkilatı hər ay fəhlənin əmək haqqından 1-2 faiz alır, amma onu müdafiə etmir. Dövlət Əmək Müfəttişliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibindən çıxarılmalıdır və ölkəmizdə Əmək Nazirliyi yaradılmalıdır. Məhz Əmək Müfəttişliyinin qeyri-kafi işlərindən dəfələrlə şikayət yazmışıq.

Azərbaycan Əmək Məcəlləsinin 207, 215, 217, 218, 219 və 239-cu maddəsinə qədər, həmçinin Nazirlər Kabinetinin 27 saylı qərarının pozulması halları olur. İstehsalatda baş vermiş bədbəxt hadisələrin icbari sığortası haqqında qanun pozulur. Amma heç kəs bu qanun pozuntusunun monitorinqini aparmır, verilən ərizələrə reaksiya sıfırdır. İş yerlərində məhz bu qaydalara nəzarətsizlik ucbatından çoxlu sayda işçilər həlak olur. Həm sağlam iş yerlərinin yaradılmamasının, həm də müvafiq qoruyucu vasitələrlə təmin olunmamasının şahidi oluruq. Əmək Müfəttişliyi otağından çölə çıxmır, müşahidələr aparmır. Yoldan keçəndə tikinti yerlərində vəziyyətin nədən ibarət olduğunu görürük. İnsanlar müdafiəsiz qalıb".

*M.Qəhrəmanlı vurğulayıb ki, ölkəmizdə ən çox fəhlələrin əmək və sosial hüquqları pozulur:* "İnsanların iş yerində ölməsinə səbəb qeyd etdiyimiz qanunvericiliyin icrasına dövlət və ictimai nəzarətin olmamasıdır. Vətəndaşlarımız istehsalat sahəsində çalışarkən şikəst olur. Amma qeyd edirlər ki, hadisə işçinin təqsiri və səhlənkarlığı ucbatından baş verib".

**Yeganə Bayramova**

# İstehsalatda baş verə biləcək bədbəxt hadisələr azalacaq

*Yeni dövlət standartları qəbul edilib*



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən verilən məlumata əsasən, istehsalatda baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədilə dövlət standartı qəbul edilib.

Bu sahədə sahibkarlara dəstək göstərilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" Publik hüquqi şəxs tərəfindən beynəlxalq standartlar əsasında AZS ISO 45001 "Əmək sağlamlığı və təhlükəsizliyinin idarə edilməsi sistemi" dövlət standartı qəbul edilərək Dövlət Fonduna daxil edilib. Həmin standart əmək sağlamlığı və təhlükəsizliyi sistemini yaratmaq və həyata keçirmək istəyən istənilən təşkilat tərəfindən tətbiq edilə bilər.

**Qəbul olunmuş standart barədə "Şərq"ə danışan təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev qeyd edib ki, istehsalatda bu prosesi həyata keçirmək üçün sahibkarların marağı olmalıdır:** "Yeni qəbul olunmuş standart beynəlxalq standartların bazası əsasında yaradılıb. Bu standart iş yerlərində, istehsalatda sağlam və təhlükəsiz əmək şəraiti yaradılmasını daha da təkmilləşdirmək üçün nəzərdə tutulub. Təbii ki, iş yerlərində mütləq sağlam əmək şəraiti yaradılmalıdır ki, işçilər hər hansı bədbəxt hadisə nəticəsində xəsarət almasın və peşə xəstəliklərinə məruz qalmasınlar. Ona görə də bu standartın tətbiq olunması çox müsbət haldır. Əsas məsələlərdən biri də bu standart ilə iş yerlərində və istehsalatda istifadə olunan avadanlıq, qurğu və mexanizmlərin daha müasirləri ilə əvəz olunması, iş prosedurunun daha optimallaşdırılması, iş vaxtının daha səmərəli olmasını təmin etməkdir. Bu cəhətdən də həmin standartın qəbul olunması çox müsbətdir. Ancaq gərək bu prosesin təqdimatı edilsin və sahibkarlar bununla tanış olsunlar. İstehsalatda bu standartları həyata keçirmək üçün sahibkarların marağı olmalıdır. Əgər həmin standart bütün iş yerlərində tətbiq olunmayacaqsa, ya da ona düzgün nəzarət mexanizmi qurulmayacaqsa, burda işin səmərəliliyindən söhbət gedə bilməz".

**Aytac Ali**

# Tarzən 83 yaşında dünyasını dəyişib

Azərbaycan Milli Konservatoriyasının Xalq çalğı alətləri kafedrasının professoru, sənətşünaslıq namizədi, görkəmli tarzən-pedaqoq, muğam bilicisi, əməkdar incəsənət xadimi, prezident təqaüdçüsü Oqtay Quliyev vəfat edib.



O, 83 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, O.Quliyev 1938-ci ildə Ağdamda anadan olub, sənətə ilk addımını rayon musiqi məktəbində atıb, onun tar ixtisası üzrə yüksək pedaqoji təcrübəyə malik müəllimləri həm not iztisası, həm də muğam sənəti üzrə sirlərini öyrədiblər. Müəllimlərinin məsləhətilə Bakıya gəlib və təhsilini A.Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbində davam etdirib. Burada məşhur sənət xadimlərindən xalq artisti, professor Səid Rüstəmov və xalq artisti, muğam sərrafı Əhməd Bakıxanovdan ixtisas dərsləri alıb. Tələbəsinin istedadını yüksək qiymətləndirən Səid Rüstəmov ona böyük etimad göstərərək, bədii rəhbəri və baş dirijoru olduğu əməkdar kollektivə - xalq çalğı alətləri orkestrinə solist işləməyə dəvət edib.

Oqtay Quliyev əvvəl Səid Rüstəmovun tar ixtisası sinfində iki il təhsil alıb, sonrakı illərdə dirijorluq sahəsində püxtələşib və həmin sinifi müvəffəqiyyətlə bitirib. Səid Rüstəmov və Süleyman Ələsgərov kimi görkəmli sənətkar və pedaqoqlardan ixtisas təhsili alıb.

1963-cü ildə konservatoriyanı müvəffəqiyyətlə bitirən O.Quliyev ömrünü pedaqoji fəaliyyətə həsr edib. 1969-cu ildən konservatoriyada işləməyə dəvət alıb.

Tar tədrisi üzrə yazdığı metodik tövsiyələr, proqramlar, tərtib etdiyi not məcmuələri qiymətli vəsait kimi istifadə olunurlar.

Respublikada peşəkar tar ifaçıları və müəllimlərindən ilk dissertasiya müdafiə edən məhz O.Quliyev olub. O, yaxşı mütəxəssis kimi Türkiyəyə dəvət olunmuş, 1994-2003-cü illərdə Trabzonun məşhur Qara Dəniz Texniki Universitetində professor vəzifəsində çalışıb. Burada musiqi fakültəsində ilk dəfə tar sinfi açıb, peşəkar tar ifaçıları yetişdirib, Azərbaycan tarının bu ölkədə geniş tədrisinə nail olub.

O.Quliyev SSRİ və Ümumdünya miqyaslı musiqi festivallarında iştirak edən və yüksək qələbə qazanaraq, qızıl medala, beynəlxalq festival laureatı adına layiq görülən ilk tar ifaçısıdır. O. Quliyev rus və Avropa klassik musiqisini milli alətdə məharətlə ifa edən, tarın geniş texniki və bədii ifa imkanlarını aşkar edən, solo tar ifaçılığını müasir səviyyəyə qaldıran ilk peşəkar tarzəndir.

**Allah rəhmət eləsin!**

# "Gözüm aydın xalq artistisən"





## Səidə Sultan Röya ilə yeni savaşa başladı

"Hər şey mənimdir demək olmaz, dünyanı tutub qalmayacağıq. Səhnədə hansısa müğənni ömrünün axırına qədər zirvədə qala bilmir. Sabah mənim də populyarlığım sönəcək"

"Üçü də qərar verə bilməyiblər. Hərəsi ayrı-ayrı deyir ki, Səidəni sənətə mən gətirmişəm. Ay qızlar, xalalar, bacılar, analar, siz məni səhnəyə gətirməmisiniz. Bir ayılın, özünüzə gəlin. Yolu açan Allahdır. Çox şükür, öz ayaqlarımın üstündə durmuşam, öz-özümə Səidə Sultan olmuşam. Eqolarınızı bir kənara qoyun".

*"Şərq" xəbər verir ki, bu sözləri "Onda görüşək" verilişində müğənni Səidə Sultan həmkarları Röya Ayxan, Natəvan Həbibi və Elnarə Xəlilova haqqında söyləyib. O, ən əsas Röyanı amaladığını xüsusi vurğulayıb:* "Həyatda yekəxana insanı sevmirəm. Bir az sadə olmaq lazımdır. Xalqın sevgisini qazanırsınız, sonra camaata minnət edirsiniz. Gözüm aydın xalq artistisən. Mən də Sultanam, tacım da başımdadır. Hörmət də qarşılıqlıdır. O sözü sevmirəm, deyirlər, Səidənin əlindən tutmuşuq. Siz kimsiniz ki, əlimdən tutasınız? Bu nə danışıqdır? Sənin özünü əlindən tutub gətirənlər olub, məni yox! Mənimlə kimsə mübarizə aparmaq istəyirsə, şəxsi məsələlərə toxunmasın. Gəlsin, üzbəüz dalaşsın. Bəzi söhbətləri Səidəyə ləkə olsun deyə mediaya sızdırmaq lazımsızdır. Elə mövzular var ki, o, insana yapışmır. Gördüm ki, etdiyi düzgün hərəkət deyil".

**İfaçı həmçinin deyib ki, Röya ilə aralarındakı soyuqluq bir-birinə bənzədilən məşhur fotosessiyalarından sonra başlayıb:** "Həmin şəkillər yayımlananda, əksəriyyət dedi ki, bənzərlik çoxdur. Hətta jurnalistin biri paylaşaraq obraz kimi Səidə Sultanla eyni olduğunu söylədi. Onlar da (Natəvanla Röyanı nəzərdə tutur - red) eqolarından özlərinə sığışdıra bilmədilər ki, Səidənin geyiminə oxşayır. O xəbərləri mətbuatdan sildirdilər. Sonra dedilər ki, xəbərimiz yoxdur. Fikirləşdim ki, onlardan sonra mən həmin fotossesiyanı etdirib bənzədilsə idim, bütün mətbuat yazardı. Niyə məhz Səidəyə oxşadıldı yazılıb deyə silinir? Mən də öz səhifəmdə paylaşdım. Hər şey mənimdir demək olmaz, dünyanı tutub qalmayacağıq. Səhnədə hansısa müğənni ömrünün axırına qədər zirvədə qala bilmir. Sabah mənim də populyarlığım sönəcək. Bu yaşıma kimi nə qədər əziyyət çəkmişəm. Sənətdə eqom yoxdur. Çünki özümə arxayınam. İnsan özündən əmin olmalıdır. Düzlük gözəl bir şeydir. Mən də haqqı danışıram. Kiminsə haqqına girmirəm, yaxud da kiminsə yerində olmaq istəmirəm. Hələ o deyir ki, onlar mənim yerimdə ola bilməzlər. Qazandığın sevgini gördük də, bir günə apardılar. Heç vaxt insanların sevgisinə görə yekexanalıq etmə".

**S.Sultanın qalmaqallı açıqlamasına Röyadan gözlənilməz reaksiya gəlib. O, həmkarının klipindən bir hissə paylaşaraq bunları yazıb:** "Səidə ilə 1980-ci illərə getdim. Bu gün ilk dəfə izlədim. Ay, çox bəyəndim. Nə gözəl işdir. Zəhmət də var. Maşallah".

Natəvan və Elnarə cəbhəsindən isə hələ səs yoxdur.

**Samirə Ərəblinski**

## "Duet oxuyurlar, sonra eşq yaşayırlar"

Mənzurə Musayeva maraqlı açıqlama verib



**Müğənni Mənzurə Musayeva Tolikin "Günə bir şou" verilişində iddialı açıqlama verib. O, duet mahnı oxuyan müğənnilər haqqında danışıb.**

"Şərq"in məlumatına görə, o, proqramda bunları söyləyib: "Duet oxuyurlar, sonra eşq yaşamağa başlayırlar. Biz də eşdirik. Münasibətləri də bitəndə başqa qız gətirir, o birinin acığına onunla ifa edir. Xanımlar sədaqətli olur. Amma oğlanlar yox".

**Samirə**

## "Mükəmməl sənətkar yoxdur"

Samir Cəfərov Nazilə Səfərlinin bu iddiası ilə razılaşmadı



**"Qüsursuz insan olmaz. Amma səhnədə ifaçı, yaxud da musiqiçi sıravi insanlardan sənətinə görə bir addım öndə dayanır. Əksər sənətçinin bir qüsurlu tərəfi var. Mükəmməl sənətkar yoxdur. Mütləq bir səhvləri olur".**

"Şərq" xəbər verir ki, bu sözləri "Həmin Zaur" verilişində şairə Nazilə Səfərli deyib. Lakin proqramın digər qonağı, opera ifaçısı Samir Cəfərov N.Səfərli ilə razılaşmayaraq bunları söyləyib: "Azərbaycanı sovet dövründə sənətkarları ilə tanıyıblar. Onlar həm sənətlərinə, həm də şəxsiyyətlərinə görə sevilirdilər. Məsələn, Rəşid Behbudov Azərbaycanı dünyada təmsil edib. Siz indi də ümumi danışmayın, bəzilərini nəzərdə tutun. Misal üçün, indi yaxşılardan -Arif Babayevdən, Alim Qasımovdan, Azər Zeynalovdan bəhs edin".

Şairə isə S.Cəfərova belə cavab verib: "Biz o sənətkarların şəxsiyyətlərini bilmirdik. Onlar sovet dövründə pərdə arxasında qaldılar. İç dünyalarını göstərmədilər".

**Samirə Ərəblinski**

## Çox az qazanırlar

Moskvaya toya gedənlər yalan danışır



**Müğənni Türkan Vəlizadə prodüser Tarix Əliyevin "Günə bir şou" verilişində qonaq olarkən toy və konsert üçün Rusiyaya üz tutan həmkarlarından danışıb.**

*"Şərq" xəbər verir ki, o, özünə də təkliflərin gəldiyini söyləyib:* "Amma qonorarda razılaşmadıq. Məsələn, toya 5 (məbləğ şərtidir - red) manata gedirəmsə, onlar 1 manata çağırırlar. Moskvada neçə min dollar qazanıram deyənlər yalan danışırlar. Burdan sizə səslənirəm, yalan danışırsınız! Əvvəllər 5 min dollara ifa edirdilərsə, indi həmin qiymət 2, yaxud da 1000 dollara düşüb". Tolik ifaçının videosunu instaqram səhifəsində paylaşıb. Onun fikirlərinə məşhurlar da münasibət bildirib.

**Vasif Məhərrəmli:** "Düz danışır. Səhv demir".

**Aygün MM:** "Min dollar azdır? Burda işsizgücsüz oturmaqdansa, orada bir ay hər gün toya getsələr, görün nə qədər pul edir".

**Samirə**

# Bakıda mənzərə fərqlidir




## *Regional bank filialları ilə bağlı problemlər var*

"Rayonlara daha az vəsait ayıran banklar regionlarda kreditləri də yüksək faizlə təklif edirlər". "Şərq" xəbər verir ki, bu sözləri millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib. Deputat Mərkəzi Bankın məlumatına istinadən bildirib ki, bankların ən yüksək kredit faizləri Yuxarı Qarabağ iqtisadi rayonundadır:

”Yəni Füzuli, Ağdam və Tərtər rayonlarında yaşayan vətəndaşlarımız və iş adamları daha yüksək faizli kredit götürmək məcburiyyətindədirlər. Bu, iqtisadi rayon üzrə orta kredit faizi 24.25 faizdir. Uyğun olaraq Dağlıq Şirvan və Aran iqtisadi rayonları da yüksək kredit faizlərinə görə fərqlənir. Ümumiyyətlə, rayonlarda kredit faizləri Bakı ilə müqayisədə orta hesabla 2 dəfədən çox artıqdır. Mərkəzi Bankın rayonlarda fəaliyyət göstərən sahibkarlara daha ucuz kreditlərin verilməsini təşviq etməsi çox vacibdir. Bu zaman xərclərin bir hissəsinin subsidiya edilməsi, rayonlara aşağı faizli kredit ayıran banklara əlavə güzəştlərin verilməsi mexanizmindən istifadə oluna bilər”.

**Mövzu ilə bağlı ”Şərq”in suallarını cavablandıran iqtisadçı-ekspert Razi Abasbəyli vurğulayıb ki, Azərbaycanın bank sektorunda ümumiyyətlə, likvidlik aşağı səviyyədədir. Ekspert qeyd edib ki, xüsusilə regionlarda bankların aktivlərində ciddi problemlər var:** ”Biz əgər Bakı şəhəri üzrə kvalifikasiya aparsaq, onda görərik ki, Bakı şəhərində bankların daha çox əmanət yığımları var, nəinki rayonların. Regionlarda əmanət yığımları, eyni zamanda kredit və investisiya qoyuluşları ilə bağlı çox ciddi problemlər mövcuddur. Çünki regionlarda investisiya aşağı səviyyədədir. Burda biz bankları günahlandıra bilmərik. 2020-ci ildə açıqlanan göstəricilər sübut edir ki, Azərbaycanın yerli bank sektorunda, xüsusən də regional bank filialları ilə bağlı çox ciddi problemlər var”.

**Ekspert əlavə edib ki, regional banklarda həm kreditlərin qaytarılmasında, həm də kredit qoyuluşlarında problemlər yaşanmaqdadır:** ”Qeyd edim ki, bugünə qədər problemli kreditlərin 32-33 faizi regional bank filiallarının payına düşür. Bundan başqa regional bank filiallarında daha çox kredit qoyuluşlarında çətinliklər yaşanır. Azərbaycanın regional bank sektorunda kredit qoyuluşlarının istiqamətləri ilə bağlı tətbiqi yanaşmalar olmalıdır. Bu günləri bankların regional sahibkarlığı, fermer təsərrüfatları və digər istiqamətlər üzrə kredit qoyuluşlarına dövlət tərəfindən şərait yaradılmır. Çünki bəzən regionda olan banklar birbaşa olaraq sahibkara kredit verə bilmir. Bu, müvəkkil banklar vasitəsilə həyata keçirilir. Əgər dövlət büdcəsindən yönləndirilən regional kreditlərlə bağlı bir sıra inzibati baryerlər ortadan qaldırılsa, əlbəttə ki, banklar da kredit verilməsində, faiz dərəcələrinin aşağı salınmasında maraqlı tərəfə çevriləcəklər. Düzdür, regionların iqtisadi inkişaf proqramı ilə bağlı bir sıra dövlət proqramları var və həyata keçirilir. Amma çox təəssüf ki, burada maliyyə təminatı ilə bağlı bir sıra qanunvericilik toplularında, qanunvericilik istiqamətində addımlar atılmayıb. Birbaşa kredit qoyuluşları ilə bağlı problemlər var. Nizamnamə kapitallarındakı aktivlərin həcminin aşağı olması, bankların əlbəttə ki, özünü sığortalaması faiz dərəcələrini yüksəlməsinə səbəb olur. Hesab edirəm ki, bu məsələlərin qanunvericilik çərçivəsində həll olunmasına böyük ehtiyac var”.

**Aynurə Pənahqızı**



## Həkim andına sadiq qaldı

### Şiddətli yanğına rəğmən əməliyyatı dayandırmadı

**Rusiyada xəstəxanada baş verən yanğın ağlasığmaz hadisəyə səbəb olub. Yanğın Rusiyanın Çin sərhədinə yaxın Blagoveşçensk şəhərində baş verib.**

”Şərq” ”Hurriyet.com”a istinadən bildirir ki, alova məhəl qoymayan həkimlər açıq ürək əməliyyatına davam ediblər. Rusiya Fövqəladə Hallar Nazirliyi yanğının 1907-ci ildə çar dövründə inşa edilən xəstəxanada, taxta tavanda sürətlə yayıldığını açıqlayıb. Yanğının elektrik kabellərindəki qısaqapanmadan qaynaqlandığı bildirilir. Xəstəxananın bölgədə yeganə kardiologiya bölməsinə sahib olduğu deyilir. Baş cərrah Valentin Filatov və həkim kollektivi xəstəni xilas etməli olduğunu və bunun üçün hər şeyi etdiklərini bildiriblər. Həkimlərin bu cəsarətli addımlarına görə səlahiyyətli orqanlar tərəfindən mükafatlandırılacaqları söylənilir.

**Yeganə Bayramova**

## Pilotsuz taksilər üçün hava limanı terminalı tikiləcək



**Çinin ”Ehang” şirkəti ekoturizm sənayesində fəal şəkildə istifadə ediləcək pilotsuz taksilər üçün hava limanı terminalı tikmək niyyətindədir. Qeyri-adi struktur İtaliyada tikilməsi planlaşdırıldığından italyan dizayn qrupu ”Giancarlo Zema Design Group” ilə birlikdə hazırlanıb.**

AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, bu məqsədlə ”vertiport” adlanan xüsusi aerovağzal yaradılıb. Artıq 2 sərnişin daşıya bilən 40 pilotsuz avtomobil burada sınaq uçuşları həyata keçirir. Layihə müəllifləri ”vertiport”da sərnişinləri bir çox maraqlı və qeyri-adi şeylərin gözlədiyini vəd edirlər. Hava avtomobilində gəzmək üçün sərnişinlər qurğunun yuxarı hissəsində yerləşən qalxma və enmə platformasına liftlə getməli olacaqlar. Təyyarələr üçün üç eniş sahəsi olan açıq teraslar yaradılacaq. Aerovağzalda sərnişinlər üçün gözləmə otağı, müşahidə göyərtəsi və ətrafdakı mənzərəni 360 dərəcə göstərən bir restoran da nəzərdə tutulub.

## Buraxılışının qonağı bəlli olub

### *İlon Maskın anası “Yeni çağırışlar”da sualları cavablayacaq*

"Yeni çağırışlar" onlayn müzakirə proqramının 14 apreldə yayımlanacaq növbəti buraxılışının qonağı bəlli olub. Milli.Az ted.az-a istinadən bildirir ki, proqramın qonağı yazıçı, beynəlxalq bestseller müəllifi Mey Mask olacaq.



Təhsil Nazirliyinin dəstəyi və ”T-Network” platformasının təşkilatçılığı ilə Cəfər Mənsiminin təqdimatında davam edən proqramın bu buraxılışı da həmişə olduğu kimi Təhsil Nazirliyinin feysbuk səhifəsindən Azərbaycan dilinə tərcümə ilə canlı yayımlanacaq.

Proqramda qonaq Azərbaycan tamaşaçılarının marağında ola biləcək sualları cavablandıracaq.

Qeyd edək ki, Mey Mask dünyanın ən zəngin ikinci adamı, ”SpaceX” və ”Tesla” şirkətlərinin qurucusu İlon Maskın anasıdır.

Xanım Maskın bestseller olan ”Bir qadın plan qurarsa” kitabı 70-dən çox dilə tərcümə edilib. Kitabda o, həyat təcrübəsini, uğur qazanmağın yolları ilə bağlı düşüncələrini, eləcə də övladları İlon Mask, Kimbal Mask və Toska Maskı necə böyütdüyünü, çətinliklərini, uğurlarını və sevinclərini qələmə alır. Bununla, o, insanları, xüsusilə qadınları daha uğurlu, daha inadkar, daha təşəbbüskar və sağlam olmağa səsləyir.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 634

# Kraliça ilk dəfə icazə verdi

## Bukinqam sarayı xalqın üzünə açıldı





**İngiltərə kraliçası ikinci Elizabet tarixdə ilk dəfə olaraq Bukinqam sarayının xalqın üzünə açılmasına icazə verib.**

Bukinqam sarayından verilən açıqlamada bildirilib ki, saray insanlar üçün bu yay açıq olacaq: "Bu yay Bukinqam arayının həyəti ziyarətçilər üçün açıq olacaq. Sarayın çəmənlikləri üstündə piknik edə bilməniz üçün ömrünüzdə sadəcə bir dəfə rast gələcəyiniz fürsətdən yararlanın".

*Qeyd edək ki, Bukinqam sarayı, 775 otaqdan ibarət 828 min kvadratmetrlik nəhəng tikilidir. Kral ailəsinin veb-saytından əldə edilən məlumata görə, sarayda müxtəlif tədbirlər üçün istifadə olunan 19 fərqli dövlət otağı var. Sarayda ümumilikdə 240 yataq otağı var, bunlardan 52-si kral otaqları, 188-i isə işçilər üçün istifadə olunur. Sarayın bağını 156 metrlik sərhəd divarı qoruyur.*

**Ağarza**

# Pandemiya 40 min uşağı yetim qoydu

## Bu say daha da artacaq



**ABŞ-da aparılan araşdırmaya görə, koronavirus minlərlə uşağı kimsəsiz qoyub.**

Medicina.az xəbər verir ki, mütəxəssislərin məlumatına görə, valideynlərini itirən uşaqlarda travmatik, uzun müddətli yas səbəbi ilə depressiya, daha zəif təhsil almaq, iqtisadi problemlər və intihar kimi problemlərə yol açır. Araşdırmada qeyd edilir ki, ölkədə təxminən 40 min uşaq 2020-ci ilin fevralından bəri valideynlərindən birini koronavirusa görə itirib. Və bu say daha da artacaq.

# Nassifin 8,3 milyard dollar sərvəti var

## "Forbes" 10 ən varlı ərəb biznesmenin adını açıqlayıb




**"Forbes" jurnalı 2021-ci ildə dünyanın 10 ən varlı ərəb biznesmenin adını açıqlayıb.**

Siyahıya "Adidas" idman geyimləri və avadanlıqları istehsal edən şirkətin səhmlərinin payçısı, habelə ABŞ-ın Texas və Ayova ştatlarında fabriklərə sahib olan misirli biznesmen Nassif Saviris başçılıq edir. Onun 8,3 milyard dollar sərvəti var. Nassifin qardaşı Macuib Saviris 3,2 milyard dollar sərvətlə 4-cü yeri tutur. İkinci ən varlı ərəb biznesmeni əlcəzairli İssad Rebrab (4,8 milyard dollar), üçüncü isə Birləşmiş Ərəb Əmirliklərinin iş adamı Məcid əl-Futtaimdir (3,6 milyard dollar). Siyahıda Qətər, Oman və Livan mənşəli biznesmenlər də yer alıb.

# 4 min nəfərlik toy edəcək

## Pandemiyanın bitməsini gözləyir



**Türkiyəli müğənni Sinan Akçıl fevralda ikinci dəfə evləndiyi aktrisa həyat yoldaşı Burcu Kıratlı ilə görüntülənib.**

Sənətçi koronavirus səbəbi ilə 60 nəfərlik toy etdiyini açıqlayıb: **"Xəyalımda 3-4 minlik toy etmək var idi.** Pandemiya bitəndə onu da edəcəyəm". S.Akçıl qız atası olmaq istədiyini də deyib.





# 30 il sonra...

## 7 metrlik dırnaqlarını kəsdirdi



**ABŞ-ın Hyuston şəhərində yaşayan Ajanna Vilyamsın 30 il boyunca uzatdığı dırnaqlarını kəsmək üçün mişardan istifadə edilib.**



5,7 metr uzunluğunda dırnaqlara sahib Ayanna Vilyamsın adı 2017-ci ildə Ginnesin Rekordlar kitabına düşüb. Ajanna dırnaqlarını 20 saat manikür etdirirmiş, dırnaqların boyanması üçünsə 2 şüşə dırnaq boyası istifadə olunurmuş. Ajanna 30 illik dırnaqları ilə dermatoloqun iştirakı ilə vidalaşıb. Onun dırnaqları mişarla kəsilib. Kəsilməzdən əvvəl dırnaqların uzunluğu ölçülüb və onların daha da uzanaraq 7, 3 metrə çatdığı müəyyənləşib. Vilyams "dırnaqlarım olsa da, olmasa da, mən "kraliça" olaraq qalacam" deyib. Ajanna bundan sonar sadəcə 15 santimetr uzunluğunda dırnaq saxlayacağını söyləyib. Vilyamsın rekord qıran dırnaqları Florida ştatının Orlando bölgəsindəki muzeydə sərgilənəcək.

**Məlahət**



# Hamı qorxudan çaşıb qalmışdı

## Nəhəng kərtənkələ marketdə həyəcan yaratdı



**Marketə alış-veriş üçün gəlmiş müştərilər gördükləri səhnə önündə heyrətə düşüb, qorxudan nə edəcəklərini bilməyiblər.**

Lakin müştərilərdən biri "ürəkli" çıxıb, qorxunc mənzərəni telefon vasitəsilə videoya çəkib. Müştərinin paylaşdığı video hazırda dünyada ən çox baxılanlar sırasındadır.

Hadisə Taylandın Nakhon Pathom şəhərində baş verib. Marketə girən müştərilər rəfə dırmaşan nəhəng kərtənkələ ilə qarşılaşıblar. Kərtənkələ ətrafdakı qışqırıq və çığırtılara əhəmiyyət verməmdən həm marketin ortasında, həm də rəflərin üstü ilə dolaşırmış. Kərtənkələnin hərəkətlərini həmin vaxt marketə alış-veriş üçün getmiş Narimpa Tanqsin mobil telefonu ilə videoya çəkib. Kərtənkələ əvvəlcə içkilər düzülmüş rəfə dırmanıb. Sonra isə süd məhsulları qoyulmuş rəfə qalxıb. Bəzi məhsullar rəfdən aşağı tökülüb. Ortalığı dağıtdıqdan sonra nəhəng kərtənkələ ən hündürdə olan rəfə dırmanıb və sakitcə uzanıb "istirahət edib". Marketə xilasetmə qrupu çağırılıb. Qrup kərtənkələni marketdən sürüyərək çıxarıb. Bildirilir ki, Asiyada belə nəhəng kərtənkələlər Tayland kənarlarındakı kanal və göllərdə yaşayır. Əsasən balıq, ilan və qurbağalarla qidalanırlar. Bəzən onların insanları dişləməsi hallarına da rast gəlinir.

**Məlahət**

# 41 yaşı var, izləyicilərini heyran qoyur



**ATV-də yayımlanan "Zengin ve Yoksul" serialında Şeniz obrazını canlandıran aktrisa Mine Tuqay sosial şəbəkə paylaşımları ilə gündəmdədir.**

41 yaşlı aktrisa açıq-saçıq fotoları ilə daim diqqət mərkəzindədir. Orta yaşlı olmasına baxmayaraq xeyli cavan görünən Mine cazibədarlığı ilə izləyicilərini heyran qoyur.